№ 272 ISSN 1027-3875 30 iyun 2009

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Əlirza BALAYEV

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Fotomüxbir:
Könül ƏLİYEVA

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been published twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Alirza BALAYEV

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Photoreporter:
Konul ALIYEVA


Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000


The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN

Bu nömrədə



TƏLƏBƏLƏRİN YEKUN KONSERTİ 4



ABŞ PREZİDENTİ BARAK OBAMANIN QAHİRƏ UNİVERSİTETİNDƏ ÇIXIŞI (4 iyun 2009-cu il) 10



Nəriman Həsənzadə yaradıcılığına bir tələbə baxışı 22



"KITABİ-DƏDƏ QORQUD"DA OĞUZ QADIN TİPİ: DƏLİ DOMRULUN XATUNU 24



НАЧНИТЕ МЕНЯТЬСЯ УЖЕ СЕЙЧАС 27



Dahi, casus, diktator 32

UNİVERSİTƏ XƏBƏRLƏRİ





TƏLƏBƏLƏRİN YEKUN KONSERTİ

İyunun 11-də Xəzər Universitəsinin "Dünya" konsert salonunda tələbələrin növbəti yekun konserti keçirildi. Salonda tələbələrin əl işlərindən ibarət zərgərlik sərgisi də nümayiş etdirilirdi.

Konsertin aparıcıları – Musiqi və İncəsənət Departamentinin koordinatoru Zülfiyyə Sadıqova və M. F. Axundov adına Opera və Balet Teatrının solisti, universitənin vokal müəllimi Fərid Əliyev konserti açıq elan edərək, iştirakçıları salamladılar. Konsertin təşkilindən məqsəd tələbələrin Azərbaycan mədəniyyəti bölməsində keçdikləri dərsləri necə mənimsədiklərini yoxlamaq idi. Aparıcılar bu baxımdan konsertin imtahan xarakteri daşıyacağını xüsusi vurğulayaraq, tələbələrin bu imtahandan necə çıxacaqlarını bir müəllim kimi özlərinin də çox səbrsizliklə gözlədiklərini bildirdilər. Eyni zamanda, tamaşaçılar üçün tələbələrin maraqlı bir sürpriz hazırladıqlarını da soylədilər.


Konsertin başlanğıcında Xəzər Universitəsinin Mahnı və rəqs ansamblının qızlardan və oğlanlardan ibarət rəqs qrupu rəqs müəllimləri Səbinə Minasazova, Əlbəndə Əliyev və Xəyalə Zöhra-






bovanın hazırladıqları "Özbək","Qazaxı","Bahar", "Cəngi", "Şalaxo" və s. rəqsləri ustalıqla ifa etdilər. Sonra Xəzər Universitəsinin digər fakültələrində təhsil alan, konsertə qonaq kimi dəvət edilən İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Bahar Feyzullayeva xalq mahnılarını (tar, kamança, nağara üçlüyünün müşayiəti ilə), Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsində təhsil alan Natiq İsmayılov estrada mahnılarını məharətlə ifa etdilər.

Onu da qeyd edək ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə may ayının 21-22-də "Tələbə Baharı" adı





altında keçirilən tələbələrin III ümumrespublikla yaradıcılıq festivalında milli rəqslər nominasiyası üzrə Xəzər Universitəsinin rəqs qrupu ikinci yeri, estrada nominasiyası üzrə Natiq İsmayılov üçüncü yeri tutaraq mükafatlandırılmışlar.

Növbə konsertin sürprizinə çatdı: Xəzər Universitəsinin müxtəlif fakültələrində təhsil alan hindistanlı tələbələr iki ay ərzində əzmlə çalışaraq, böyük bəstəkarımız Üzeyir Hacıbəyovun "O olmasın, bu olsun" musiqili komediyasından parçaları Azərbaycan dilində tamaşaya hazırlamışdılar. Onların tamaşanı təmiz, səlis dildə və aktyorluq məharəti ilə təqdim etmələri Azərbaycan mədəniyyətinə maraq və ehtiramlarının təzahürü idi.

Konsert müəllimlərin "hədiyyə"si ilə yekunlaşdı. Azərbaycanın əməkdar artisti Xanlar Bəşirov, Fərid Əliyev və Zülfiyyə Sadıqova öz gözəl ifaları ilə iştirakçıların zövqünü oxşadılar.

Tamaşaçıların yekdil rəyinə görə, tələbələrin öz müəllimlərinin rəhbərliyi ilə hazırladıqları







musiqi nömrələri müvafiq tələblərə tam cavab verirdi.

Konsertdə Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı iştirak etmişdir.

Xəyalə MƏMMƏDOVA,
Humanitar və sosial elmlər fakültəsinin müəlliməsi

Çin səfirliyində görüş

İyunun 12-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlının Çinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri cənab Çjan Yann-Yan ilə səfirlikdə görüşü oldu. Görüşdə Çin-Azərbaycan təhsil əlaqələri barədə fikir mübadiləsi aparıldı.

Ümumdünya Neft Mühəndisləri Cəmiyyətinin nümayəndə heyəti Xəzər Universitəsində

İyunun 17-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı ilə Ümumdünya Neft Mühəndisləri Cəmiyyəti nümayəndə heyətinin görüşü olmuşdur. Numayəndə heyətinə Cəmiyyətin prezidenti Leo Roodhart, icraçı direktoru Mark Rubin, Avropa







və Qərbi Afrika regionu üzrə direktoru Lawrence Slade, Rusiya və Xəzər regionu üzrə direktoru Rik Tompkinz daxil idi. Xəzər Universitəsi tərəfindən görüşdə universitənin tədris işləri üzrə prorektoru, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, dosent Rafiq Əhmədov, Neft mühəndisliyi departamentinin müdiri, professor Arif Məmmədzadə və həmin departamentin dosenti Qəşəm Zeynalov iştirak etmişlər. Görüşdə Ümumdünya Neft Mühəndisləri Cəmiyyətinin və həmçinin onun Azərbaycan bölməsi və Xəzər Universitəsi bölməsinin fəaliyyətləri barədə geniş fikir mübadiləsi aparılmış və qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə olunmuşdur.

Uzunmüddətli əməkdaşlıq perspektivlərinin müzakirəsi

İyunun 17-də Xəzər Universitəsinin rektoru, professor Hamlet İsaxanlı Avrasiya Əməkdaşlıq Proqramının prezidenti George Zarubini, icraçı direktoru Camal Şahverdiyevi və Qafqaz Tədqiqat Resurs Mərkəzinin ölkə üzrə direktoru Gürsel Əliyevi qəbul etdi. Xəzər Universitəsi ilə Qafqaz Tədqiqat Resurs Mərkəzi arasında əlaqələrin möhkəmlənməsi, uzunmüddətli əməkdaşlığın perspektivləri müzakirə olundu.

ELMİ-İNZİBATİ ŞURANIN İCLASI

İyunun 25-də Xəzər Universitəsi Elmi-İnzibati Şurasının növbəti iclası olmuşdur. İclasa universitənin rektoru, professor Hamlet İsaxanlı sədrlik etmişdir. İclasda:

Universitədə yeni qurumun yaradılması və vəzifəyə təyin olunma;

"Dünyada yeni inkişaf meylləri və Türk dünyası" beynəlxalq simpozium haqqında hesabat;

Beynəlxalq əlaqələrin inkişafı;

İnzibati şöbənin hesabatı, müşahidələri və tövsiyələri;

Yeni tədris korpusunun istifadəsi və universitə qurumlarının jerləşdirilməsi;

Cari məsələlər müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Universitədə yeni qurumun yaradılması və vəzifəyə təyin olunma məsələsi haqqında universitənin prorektoru **Məhəmməd Nuriyev** məlumat verərək bildirdi ki, universitədə yeni bir tədris-tədqiqat mərkəzi – İqtisadi Siyasət və İnkişaf Mərkəzinin yaradılması nəzərdə tutulur. Bu mərkəzdə qlobal iqtisadi inkişaf və ölkə iqtisadiyyatı ilə əlaqədar ən müxtəlif məsələlər araşdırılacaq. Mərkəzin yaradılması və onun direktoru vəzifəsinə Fikrət Paşayevin təyin olunması məsələləri şura üzvlərinin müzakirəsinə verilir. Fikrət Paşayev Moskva Dövlət Universitetində ali təhsil alıb, orada çoxmillətli müəssisələr mövzusunda namizədlik dissertasiyası müdafiə edib. Müxtəlif qurumlarda müxtəlif vəzifələrdə çalışıb. İdarəetmə və tədqiqat işi təcrübəsinə malikdir. 15 il Azərbaycan Respublikasının diplomatik xidmətində - Birləşmiş Millətlər Təşkilatında və ölkəmizin Amerika Birləşmiş Ştatlarındakı Səfirliyində çalışıb. Birləşmiş Millətlər Təşkilatı Uşaqlara Yardım Fondunun (UNICEF) İcra Orqanı prezidentinin müavini olmuşdur. O, Azərbaycanın Ümümdünya Ticarət Təşkilatına üzv olması ilə əlaqədar danışıqlarda iştirak etmişdir. İsveçrə, İtaliya, Belçika, Rusiya, Türkiyə, Misir, Qırğızıstan və Gürcüstanda təşkil olunan müxtəlif treninq, simpozium və seminarlarda iştirak etmişdir. Tədqiqat sahəsinə Xəzər regionunda çoxmillətli korporasiyalar, Ümümdünya Ticarət Təşkilatı və ticarət diplomatiyası, Xəzər regionunda enerji diplomatiyası və geosiyasət məsələləri daxildir.

M.Nuriyev məlumatını davam etdirərək bildirdi ki, Memarlıq, inşaat və ətraf mühit mühəndisliyi departamentinin müdiri vəzifəsinə Bataca Baysalın namizədliyi təklif olunur. Bataca Baysal inşaat mühəndisliyi və ətraf mühit mühəndisliyi üzrə tanınmış mütəxəssisdir. O, Orta Doğu Texniki Universitəsində (Türkiyə) inşaat mühəndisliyi üzrə bakalavr dərəcəsi, həmin universitədə ətraf mühit mühəndisliyi ixtisası üzrə magistr dərəcəsi və Ege Universitəsində (Türkiyə) Ph.D dərəcəsi almışdır. Uzun müddət müxtəlif nüfuzlu şirkətlərdə mühəndislik fəaliyyəti ilə məşğul olmuşdur. Bataca Baysal elmi fəaliyyətlə də məşğul olur. Müxtəlif beynəlxalq elmi jurnallarda 30-a yaxın elmi əsəri nəşr olunmuşdur.

Elmi-İnzibati Şura **İqtisadi Siyasət və İnkişaf Mərkəzinin yaradılması** və onun direktoru vəzifəsinə **Fikrət Paşayevin** təyin olunması haqqında qərar qəbul etdi. **Bataca Baysal** Memarlıq, İnşaat və Ətraf Mühit Mühəndisliyi Departamentinin müdiri vəzifəsinə təsdiq olundu.

"Dünyada yeni inkişaf meylləri və Türk dünyası" beynəlxalq simpozium haqqında inzibati şöbənin müdiri **Murad İsgəndərov** (əsas məruzəçi), İctimaiyyət və İş Dünyası ilə Əlaqələr Departamentinin koordinatoru **Əlövsət Əmirbəyli** və Təhsil fakültəsinin dekanı **Elza Səmədova** (həmməruzəçilər) hesabat verdilər. Qeyd olundu ki, mayın 29-31-də Bakıda Xəzər Universitəsinin təşkilatçılığı ilə "Dünyada yeni inkişaf meylləri və Türk Dünyası" mövzusunda beynəlxalq simpozium keçirilmişdir. Simpoziumun keçirilməsindən məqsəd dəyişən dünya şəraitində ortaq tarix, dil və mədəniyyət birliyinə malik olan və bugünkü Türk Dünyasını meydana gətirən cəmiyyətlərin müxtəlif universitet, akademiya və institutlarındakı elm adamlarını bir yerə toplamaqla yaşadıqları cəmiyyətlərin və ümumiyyətlə Türk Dünyasının vəziyyətini, qarşılaşdıqları problemləri araşdırmaq və müzakirə etmək idi. Simpoziumun işində Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Alma-

niya və Kanada alimləri və tədqiqatçıları iştirak etmişlər. Simpoziumda Türkiyənin Anayasa Məhkəməsinin və 20 universitetinin təmsil olunması əlamətdar idi.

Simpoziumun təntənəli açılış və bağlanış mərasimləri · keçirilmiş, 5 bölmədə (Yeni dünya nizamı, iqtisadi böhran və inteqrasiyalar; Beynəlxalq əlaqələr və əməkdaşlıqlar; Dünya təhsil sistemi və Türk Dünyası; Tarix, fəlsəfə, din və sosiologiya; Dil, ədəbiyyat, mədəniyyət) 120-dək məruzə dinlənilmişdir. Simpoziumun bağlanış mərasimində çıxış edən xarici ölkələrin universitet rəhbərləri və tədqiqatçılar simpoziumun həm təşkilati, həm də elmi mübadilə baxımından yüksək səviyyədə keçdiyini və bu cür tədbirlərin bundan sonra da keçirilməsinin zəruri olduğunu qeyd etmişlər.

Simpoziumdan sonra Türkiyədə elmi ezamiyyətdə olmuş Ə. Əmirbəyli müxtəlif universitetlərdəki həmkarlarından simpozium haqqında eşitdiyi müsbət rəyləri şura üzvlərinin nəzərinə çatdırdı. Türkiyənin televiziya kanallarında simpozium haqqında dolğun məlumat verildiyini qeyd etdi.

Beynəlxalq əlaqələrin inkişafı haqqında universitənin rektoru, professor **Hamlet İsaxanlı** məlumat verərək dedi: Biz beynəlxalq əlaqələrimizi inkişaf etdirəndə dünyanı şərti olaraq dörd yerə bölürük: Amerika, Avropa, Uzaq Şərq –Yaponiya, Çin, Koreya kimi dövlətlər, bir də ki, əgər belə demək mümkünsə, ətrafımız. Bu regionlar öz xüsusiyyətləri ilə bir-birindən fərqlənir. Və biz bu ərəfədə onların hər birini təmsil edən təhsil müəssisələri ilə yeni əlaqələr qurmuşuq. Məsələn, bu yaxınlarda biz Amerikanın Kanzas Universiteti ilə iki universitetin iş birliyi haqqında rəsmi müqavilə imzaladıq. Avropa universitetləri ilə bir sıra sahələrdə, xüsusilə iqtisadiyyat və menecment sahəsində əlaqələrimiz var. Hazırda Erasmus proqramında iştirak edirik. Onun vaxtı bir il də uzadıldı. Yəni biz tələbələrimizi yenə bakalavr, magistr, doktor səviyyəsində Avropa ölkələrinə göndərib, oradan tələbə qəbul edə biləcəyik. Bu gediş-gəliş · müəllim və elmi işçilərə də aiddir. Sentyabrda Erasmus proqramı üzrə Avropanın 7 universitetindən böyük nümayəndə heyətini, eləcə də Gürcüstan universitetlərinin nümayəndələrini Bakıda qəbul edəcəyik, yəni növbəti toplantımızı burda keçirəcəyik. Avropa ilə yenə əlaqələr genişlənir. Indi biz Xəzər universitəsi də daxil olmaqla Avropanın 22 universitetinin əməkdaşlığı haqqında yeni layihə hazırlamışıq. Xəzər universitəsinin bu əməkdaşlığın koordinatoru olması nəzərdə tutulmuşdur.

Son vaxtlar Uzaq Şərq ali təhsil müəssisələri ilə əlaqələrə çox fikir veririk, çünki dünyanın ağırlıq mərkəzi getgedə o tərəfə keçir. İqtisadiyyatına görə Yaponiya indi dünyanın ikinci ölkəsidir. Çin son beş ildə əvvəlcə Fransanı, sonra İngiltərəni, keçən il isə Almaniyanı da ötərək, iqtisadi gücünə görə üçüncü yerə çıxmışdır. Və buna uyğun olaraq da elm və təhsil orda çox geniş inkişaf etməkdədir. Bizim bu regionda əvvəllər Koreya və Malayziya ilə əlaqələrimiz var idi. Indi bu arada mən Yaponiyaya və Çinə səfər elədim. Bu səfərlər nəticəsində xeyli nüfuzlu universitetlərlə, o cümlədən Çinin Mərkəzi Neft İnstitutu ilə, Çinin cənubunda yerləşən, 50 min tələbəsi olan Guijou Universiteti ilə müqavilə imzaladıq. Bu yaxınlarda Cənubi Koreyadan bir universitetin – Hallym Universitetinin prezidenti bizə müraciət edərək, bizimlə bərabər işləmək, iş birliyinə girmək arzusunu bildirmişdi. Biz həmin universitetlə də müqavilə imzaladıq. Yəni o regionda kifayət qədər fəallaşmağa başlamışıq.

Yaxın ətraf isə, bildiyiniz kimi, Türkiyə, Orta Asiya, Rusiya, Yaxın Şərq və digər Şərq ölkələridir. Təəssüf ki, bu diyar müəyyən dərəcədə böyük elm və texnologiya diyarı hesab olunmur. Amma bu regionda da əlaqələrimizi mümkün qədər genişləndirməyə çalışırıq. O cümlədən, bir məsələni xüsusi qeyd eləmək istəyirəm. Bu, Türkiyənin Yüksek Ögretim Kurulu (YÖK) tərəfindən tanınmağımızdır. Bu imkan verəcək ki, Türkiyədən müxtəlif səviyyələrdə tələbələr bizim iniversitədə təhsil alsınlar. Bu, Türkiyə ali təhsil müəssisələri ilə əlaqələrimizə böyük kömək göstərəcək.

Xüsusi qeyd etmək istədiyim ikinci məsələ – bu il əldə olunan nəticə kimi "Dünya" məktəbinin Beynəlxalq status almasıdır. İndiyədək Azərbaycanda yalnız TISA deyilən – The İnternational School of Azerbaijan da deyirlər onun adına –

Amerika və İngiltərə səfirliklərinin qurduğu bir məktəbin Beynəlxalq statusu var idi. Və orda daha çox xaricilər oxuyurlar. Bu il biz o statusu almağa nail olduq. Və bu asan iş deyildi. Eyni zamanda, qarşıda xeyli çətin məqsəd və vəzifələr durur.

Mən bir mühüm məsələni də qeyd etmək istəyirəm. Bu da ondan ibarətdir ki, biz səfərlərə gedirik, nümayəndələr dəvət edirik, müzakirələr aparırıq, müqavilələr imzalayırıq, amma bütün bunlardan istifadə eləyənlər çox az olur. Yəni bütün müqavilələrimizdə tələbə mübadiləsi nəzərdə tutulur. Yəni müqavilə imzaladığımız bütün universitetlərə biz tələbə göndərə bilərik. Müqavilələrin böyük hissəsində nəzərdə tutulduğuna görə, bunun üçün pul ödənilmir, ya da cüzi ödənilir. Hamı gözləyir ki, bu işin həyata keçirilməsi mexanizmi ilə də biz məşğul olaq, tələbələri çağırıb deyək ki, gedin başqa ölkələrdə təhsil alın. Amma bu işlə fakültələr, departamentlər məşğul olmalıdırlar. Biz dəfələrlə elan eləyirik, vebsaytımıza yazırıq, müqavilələr göstərilir, amma müraciət eləyən yoxdur. Yaponiya, Çin, Koreya kimi ölkələrin nüfuzlu universitetləri ilə müqavilələr bağlamışıq. Amma nə tələbələrimiz həmin universitetlərdə təhsil almağa maraq göstərir, nə də fakültələrimiz, departamentlərimiz və dekanlıqlarımız bu işlə məşğul olurlar.

Söhbət tək tələbə mübadiləsindən getmir. Olduğumuz bütün universitetlərdə ən əvvəl deyirlər ki, bərabər elmi iş görək, elmlə məşğul olan adamlar bizlə əlaqə saxlasınlar. İnanın ki, hər yerdə, birinci yerdə bu məsələni qaldırırlar. Tələbə mübadiləsi də, müəllim mübadiləsi də, konfranslar da sonra gəlir. Birinci deyirlər ki, elmi layihələr üzərində birlikdə işləyək. Biz bu sahədə də fəallıq göstərmirik. Görünür, elmlə məşğul olmağa, ya da onlarla yazışmağa həvəsimiz çatmır. Nədənsə, çox passivik. Mən istərdim ki, mənim beynəlxalq əlaqələr üzrə köməkçilərim də bu işlə məşğul olsunlar. Amma istək qarşılıqlı olmalıdır. Həm kafedralardan, fakultələrdən, həm tələbələrdən, həm biz tərəfdən.

Çıxışımın sonunda bildirmək istəyirəm ki, xarici ölkələrin universitetləri ilə əməkdaşlıq fəaliyyətimizin mühüm və strateji cəhətini təşkil edir. Biz bu işi davam etdirəcək və genişləndirəcəyik. Universitəmizin bölmələri də iradlarımı nəzərə alıb, bu sahədə fəallıq göstərməlidirlər.

İnzibati şöbənin hesabatı, müşahidələri və tövsiyələri məsələsi ilə əlaqədar şöbənin müdiri **Murad İsgəndərov** məlumat verdi. Qeyd etdi ki, son dövrdə şöbənin fəaliyyətini gücləndirmək üçün müəyyən tədbirlər görülmüşdür. Şöbənin əsasnaməsi işlənib hazırlanmış və təsdiq olunmuşdur. Bundan sonra şöbə öz işini əsasnamənin tələblərinə görə qurmuşdur. Şöbə daxilində inzibati komissiya yaradılmış və komissiya müntəzəm olaraq tələbələrin və müəllimlərin dərsə davamiyyəti üzrə monitorinqlər aparmışdır. Monitorinqlərin nəticələri dekanlıqlarla birlikdə müzakirə olunmuş, universitə rəhbərliyinin nəzərinə çatdırılmışdır. Dərs və imtahan cədvəllərinin tərtibindəki problemlər öyrənilmiş, onların həllinə aid tövsiyələr verilmişdir. Tələbələr arasında nizam-intizamın təşkili və bu sahədəki çatışmazlıqların aşkar edilərək aradan qaldırılması yolları müzakirə edilmişdir. Şöbə universitədə elmi, kütləvi tədbirlərin təşkili və keçirilməsində də fəal şəkildə iştirak etməyə başlamışdır. M. İsgəndərov qeyd etdi ki, şöbə yeni dərs ili üçün əlavə tədbirlər hazırlamaqdadır.

Yeni tədris korpusunun istifadəsi və universitə qurumlarının yerləşdirilməsi haqqında universitənin prorektoru **Rafiq Əhmədov** məlumat verdi.

Elmi-İnzibati Şura **"Dünyada yeni inkişaf meylləri və Türk dünyası" beynəlxalq simpozium haqqında hesabat; Beynəlxalq əlaqələrin inkişafı; İnzibati şöbənin hesabatı, müşahidələri və tövsiyələri; Yeni tədris korpusunun istifadəsi və universitə qurumlarının yerləşdirilməsi** məsələləri üzrə məlumatların nəzərə alınması haqqında qərar qəbul etdi.

Cari məsələlər qismində universitə Tələbə Məclisinin prezidenti **Pərviz Muradov** çıxış edərək, Tələbə Məclisinin fəaliyyətinə aid bəzi məsələləri nəzərə çatdırdı.

Sədrlik edən **Hamlet İsaxanlının** yekun sözü ilə Elmi-İnzibati Şuranın növbəti iclası başa çatdı.

"Xəzər Xəbər"



ABŞ PREZİDENTİ BARAK OBAMANIN QAHİRƏ UNİVERSİTETİNDƏ ÇIXIŞI

(4 iyun 2009-cu il)

Mən əbədi şəhər Qahirədə olmaqdan və iki böyük institut tərəfindən qarşılanmaqdan şərəf duyuram. Min ildən artıqdır ki, Əl-Əzhər Universiteti İslam elminin mayakı olaraq durmuşdur və bir əsrdən artıqdır ki, Qahirə Universiteti Misirin inkişafının mənbəyi olmuşdur. Siz birlikdə ənənə ilə inkişaf arasında ahəngi təmsil edirsiniz. Mən sizin və Misir xalqının qonaqpərvərliyinə görə minnətdaram. Mən həmçinin özümlə Amerika xalqının iltifatını və ölkəmdəki bütün müsəlman icmalarının sülh salamını gətirməkdən şərəf duyuram: Əssəlamü əleyküm. (Alqışlar).

Biz Birləşmiş Ştatlarla Müsəlman dünyası arasında böyük bir gərginliyin yaşandığı bir zamanda görüşürük – bu gərginliyin kökü hazırkı siyasi debatlardan çox-çox keçmişə gedən tarixi qüvvələrə bağlıdır. İslamla Qərb arasındakı münasibətlərə əsrlərlə birgə yaşayış və əməkdaşlıqla yanaşı münaqişələr və dini müharibələr də daxildir. Yaxın keçmişdə bu gərginlik bir çox müsəlmanların hüquq və imkanlarını rədd edən müstəmləkəçilikdən və müsəlmanların çoxluq təşkil etdiyi ölkələrin öz arzularını nəzərə almadan onlarla çox zaman ikinci dərəcəli dövlətlər kimi davranıldığı Soyuq Müharibədən qidalanmışdır. Bunlardan əlavə, müasirlik və qloballaşmanın gətirdiyi köklü dəyişikliklər bir çox müsəlmanların Qərbə İslam ənənələrinin düşməni kimi baxmasına gətirib çıxarmışdır.

Zorakı ekstremistlər bu gərginliklərdən kiçik, lakin güclü müsəlman azlıqları arasında istifadə etmişlər. 2001-ci il 11 sentyabr hadisələri və bu ekstremistlərin mülki insanlara qarşı törətdiyi fasiləsiz zorakılıq cəhdləri mənim ölkəmdə bəzilərinin İslama yalnız Amerika və Qərb ölkələrinə qarşı deyil, bütünlükdə insan hüquqlarına qarşı qaçılmaz olaraq düşmən kimi baxmasına səbəb olmuşdur. Bütün bunlar daha çox qorxu və inamsızlıq yaratmışdır.

Nə qədər ki bizim münasibətlərimiz aramızdakı fərqlər əsasında müəyyən ediləcəkdir, biz sülh əvəzinə düşmənçilik toxumu səpənləri və bizim bütün xalqlarımızın ədalət və tərəqqiyə nail olmasına kömək edəcək əməkdaşlıq əvəzinə münaqişə təbliğ edənləri gücləndirəcəyik. Bu şübhə və ixtilaf dövrəsinə son qoyulmalıdır.

Mən buraya – Qahirəyə Birləşmiş Ştatlar ilə bütün dünya müsəlmanları arasında yeni başlanğıca nail olmaq üçün gəlmişəm; o başlanğıc ki, qarşılıqlı maraq və hörmətə əsaslanır; və o başlanğıc ki, Amerika və İslamın tək olmadığı həqiqətinə və

onların bir-biri ilə rəqabətdə olmalarına ehtiyacın olmaması həqiqətinə əsaslanır. Əksinə, onlar bir-biri ilə üst-üstə düşürlər və ortaq prinsiplərə – ədalət və tərəqqi, tolerantlıq və bütün insanların şərəfli olması prinsiplərinə malikdirlər.

Mən başa düşürəm ki, dəyişikliklər bir gecədə baş verə bilməz. Bilirəm, bu nitqim barədə çox danışılacaq, amma heç bir nitq illərin inamsızlığını kökündən qoparıb ata bilməz, heç mən əlimdə olan bu zaman müddətində bizi bu məqama gətirib çıxaran bütün kompleks suallara cavab da verə bilmərəm. Lakin mən inanıram ki, irəliyə doğru addım atmaq üçün biz ürəklərimizdə saxladığımız və çox zaman ancaq bağlı qapılar arxasında səsləndirilən sözləri açıq şəkildə deməliyik. Bir-birimizi dinləmək, bir-birimizdən öyrənmək, bir-birimizə hörmət etmək və ortaq mövqeyə nail olmaq üçün davamlı səylər olmalıdır. Müqəddəs Quranın bizlərə dediyi kimi: "Allahı unutmayın və doğru danışanlar olun." (Alqışlar). Mən buna çalışacağam – qarşımızda duran vəzifənin ağırlığını nəzərə alaraq və bizim insan kimi paylaşdığımız ortaq maraqların bizi parçalayan qüvvələrdən qat-qat güclü olduğu inancımda möhkəm dayanaraq, bacardığım qədər həqiqəti danışacağam.

Bu inancın bir qismi mənim öz təcrübəmlə bağlıdır. Mən xristianam, lakin mənim atam nəsillər boyu müsəlmanların yaşadığı Keniyada, keniyalı ailədə doğulmuşdur. Cavan oğlan olarkən, mən bir neçə il İndoneziyada yaşamışam və dan yeri söküləndə və qaranlıq çökəndə azan səsini eşitmişəm. Gəncliyimdə mən bir çoxlarının öz müsəlman inancında şərəf və rahatlıq tapdığı Çikaqo icmalarında işləmişəm.

Mən həmçinin vaxtilə tarixi öyrənən bir tələbə kimi sivilizasiyanın İslama borclu olduğunu bilirəm. Bir çox əsrlər boyunca - Əl-Əzhər kimi yerlərdə - elmin yoluna işıq salan, Avropanın İntibahı və Maarifçilik fəlsəfəsinə yol açan məhz İslam olmuşdur. Riyazi ardıcıllıq, bizim maqnit, kompas və naviqasiya alətləri, qələm və çap sahəsində bizim ustalığımız, xəstəliklərin necə yayılması və onların necə sağaldılması haqqında bizim anlayışlarımız müsəlman xalqların gətirdiyi yeniliklər əsasında yaranmışdır. (Alqışlar). Islam mədəniyyəti bizə füsunkar tağlar və yüksək qüllələr, əbədi poeziya və qiymətli musiqi, gözəl hüsnxətt və sakit düşüncə məkanları bəxş etmişdir. Həmçinin bütün tarix boyu İslam həm sözdə, həm də əməldə dini tolerantlığın və irqi bərabərliyin mümkünlüyünü nümayiş etdirmişdir. (Alqışlar).

Mən həmçinin bilirəm ki, İslam həmişə Amerikanın tarixinin bir hissəsi olmuşdur. Mənim ölkəmi ilk olaraq tanıyan dövlət Mərakeş olmuşdur. 1796-cı ildə Tripoli Sazişini imzalayarkən bizim ikinci prezidentimiz Con Adams yazırdı: "Birləşmiş Ştatların müsəlmanların qanunlarına, dininə və ya dincliyinə qarşı heç bir düşmənçilik xarakteri yoxdur." Və bizim dövlətimiz yaranandan bu günə kimi amerikalı müsəlmanlar Birləşmiş Ştatları zənginləşdirmişlər. Onlar bizim müharibələrimizdə döyüşmüş, hökumətimizə xidmət etmiş, insan hüquqları uğrunda ayağa qalxmış, biznes yaratmış, universitetlərimizdə dərs demiş, idman arenalarımızda fərqlənmiş, Nobel Mükafatı qazanmış, bizim ən hündür binamızı inşa etmiş və Olimpiya məşəlini yandırmışlar. Və bu yaxınlarda ilk amerikalı müsəlman Konqresə seçildiyi zaman bizim Konstitusiyamızı qorumaq naminə bizim Bani Atalarımızdan biri olan Tomas Ceffersonun şəxsi kitabxanasında saxladığı Müqəddəs Qurana and içmişdir. (Alqışlar).

Beləliklə də, mən İslamın ilk yarandığı regiona gəlməzdən öncə onu üç materikdə tanımışam. Həmin təcrübə mənim inamımı müəyyən edir ki, Amerika ilə İslam arasındakı tərəfdaşlıq İslamın əslində nə olduğuna əsaslanmalıdır. Və mən, Birləşmiş Ştatların prezidenti kimi, harada meydana çıxmasından asılı olmayaraq, mənfi İslam stereotiplərinə qarşı mübarizə aparmağı öz vəzifələrimdən biri hesab edirəm. (Alqışlar). Amma həmin bu prinsip müsəlmanların Amerika haqqında düşüncələrinə də tətbiq edilməlidir. (Alqışlar). Müsəlmanlar kobud, alçaldıcı stereotipə uyğun gəlmədiyi kimi, Amerika da öz maraqlarını güdən kobud imperiya stereotipi deyil. Birləşmiş Ştatlar dünyanın indiyədək tanıdığı ən böyük tərəqqi mənbələrindən biri olmuşdur. Biz imperiyaya qarşı inqilabdan doğulmuşuq. Biz hamının bərabər yaradıldığı ideal əsasında yaranmışıq və həm öz sərhədlərimiz daxilində, həm də bütün dünyada bu sözlərə əsl mənasını vermək üçün əsrlərlə qan tökmüş və mübarizə aparmışıq. Biz Yer kürəsinin hər tərəfindən götürülmüş hər bir mədəniyyətdən formalaşmış və sadə bir konsepsiyaya sadiq qalmışıq: E pluribus unum - "Müxtəliflikdə - vahidik."

İndi Barak Hüseyn Obama adlı afrikalı amerikalının prezident seçilə bilməsi faktına çox diqqət çəkilir. Amma mənim şəxsi tarixçəm elə də unikal deyildir. Bütün insanlar üçün imkan arzusu Amerikadakı hər bir kəs üçün gerçəkləşməmişdir, lakin onun verdiyi vəd bizim sahillərimizə gələn hamı üçün mövcuddur ki, buraya, yeri gəlmişkən, ölkəmizdə bu gün orta təhsil və gəlir səviyyəsindən yuxarı səviyyədə yaşayan yeddi milyona yaxın müsəlman da daxildir. (Alqışlar).

Bundan əlavə, Amerikada azadlıq hər bir kəsin öz dininə etiqad etmək azadlığından ayrılmazdır. Buna görə də, bizim ölkədə hər bir ştatda məscid vardır və sərhədlərimiz daxilindəki məscidlərin sayı

bu gün 1200-dən artıqdır. Buna görədir ki, ABŞ hökuməti qadınların və qızların hicab geymək hüququnu müdafiə etmək və bu hüququ inkar etmək istəyənləri cəzalandırmaq məqsədilə məhkəməyə getmişdir. (Alqışlar).

Ona görə də, qoy .bunda heç bir şübhə olmasın: İslam Amerikanın bir parçasıdır. Və mən inanıram ki, Amerika öz içində bir həqiqəti daşıyır: irqindən, dinindən, həyatdakı mövqeyindən asılı olmayaraq bizim hamımızın ortaq stimulları vardır – sülh və təhlükəsiz şəraitdə yaşamaq, təhsil almaq və şərəflə işləmək, ailələrimizi, cəmiyyətimizi və Allahımızı sevmək. Bu, bütün insanlığın ümididir.

Belə ki, biz son təcrübəmizdən öyrənmişik ki, bir ölkədə maliyyə sistemi zəifləyəndə hər yerdə inkişafa zərbə dəyir. Yeni qrip bir insana yoluxanda, hamı təhlükə altında olur. Bir dövlət nüvə silahı hazırlayanda, nüvə hücumu təhlükəsi bütün dövlətlər üçün artır. Zorakı ekstremistlər bir dağ silsiləsində fəaliyyət göstərəndə, okeanın o tayında da insanlar təhlükəyə məruz qalırlar. Həmçinin Bosniya və Darfurda günahsız insanlar qətlə yetiriləndə, bu, bizim vicdanımıza ləkədir. (Alqışlar). Bu, bizim insan övladı olaraq bir-birimiz qarşısındakı məsuliyyətimizdir.

Və bu, daşınmalı olan çətin bir məsuliyyətdir. Çünki insanlıq tarixində dövlətlərin və tayfaların – və, bəli, dinlərin – öz maraqlarına xidmət etmək məqsədilə biri digərini istila etməsi çox tez-tez rast gəlinən bir faktdır. Lakin bu yeni dövrdə bu kimi mövqelər öz-özünü məğlub etmək deməkdir. Bizim qarşılıqlı asılılığımızı nəzərə alsaq, hər hansı bir dövləti və ya insanlar qrupunu digərinin başı üzərinə qaldıran istənilən dünya düzəni qaçılmaz olaraq iflasa uğrayacaqdır. Deməli, keçmiş haqqında nə düşünürüksə, biz ona əsir olmamalıyıq. Bizim problemlərimiz tərəfdaşlıq yolu ilə həll edilməlidir. (Alqışlar).

Amma bu o demək deyil ki, biz gərginlik mənbələrinə laqeyd qalmalıyıq. Əslində bu, onun əksini tələb edir; biz bu gərginliklərlə üz-üzə gəlməliyik. Ona görə də, bu düşüncə ilə, icazə verin, mənim qənaətimcə bizim nəhayət birgə qarşılaşmalı olduğumuz bəzi xüsusi məsələlər barədə bacardığım qədər aydın və geniş söhbət edim.

GƏRGİNLİYİN BİRİNCİ MƏNBƏYİ: ZORAKI EKSTREMİZM

Bizim üzləşdiyimiz gərginliyin birinci mənbəyi özünün bütün formaları ilə birgə zorakı ekstremizmdir. Ankarada mən açıq şəkildə bildirdim ki, Amerika İslamla müharibə aparmır və heç vaxt da aparmayacaq. Amma biz bizim təhlükəsizliyimizə öldürücü təhlükə yaradan zorakı ekstremizmə qarşı yorulmadan qarşı çıxacağıq. Çünki biz də bütün başqa inanclara malik insanların rədd etdiyi şeyləri – günahsız kişiləri, qadınları və uşaqları öldürməyi rədd edirik. Həmçinin prezident kimi Amerika xalqını qorumaq mənim birinci vəzifəmdir.

Əfqanıstandakı vəziyyət Amerikanın məqsədlərini və bizim birgə çalışmağa ehtiyacımız olduğunu nümayiş etdirir. Yeddi il bundan əvvəl Birləşmiş Ştatlar geniş beynəlxalq dəstəklə Əl-Qaidə və Talibanın dalınca getdi. Biz istədiyimizdən getmədik, biz zərurət olduğuna görə getdik. Mən bilirəm ki, bəziləri hələ də 11 sentyabr hadisələrinə şübhə ilə yanaşır və hətta mühakimə edirlər. Amma gəlin dəqiqləşdirək: Əl-Qaidə həmin gün təxminən 3000 nəfər insanı öldürdü. Qurbanlar kiməsə zərər vermək üçün heç bir şey etməmiş Amerikadan və bir çox başqa ölkələrdən olan günahsız kişilər, qadınlar və uşaqlar idi. Buna baxmayaraq, Əl Qaidə bu insanları qəddarcasına öldürməyi seçdi, hücumlara görə məsuliyyəti öz üzərinə götürdü və hətta indi də kütləvi şəkildə öldürməkdə qətiyyətli olduğunu bəyan edir. Onların bir çox ölkələrdə şöbələri vardır və öz miqyaslarını genişləndirməyə çalışırlar. Bunlar müzakirə ediləsi baxışlar deyil; bunlar mübarizə aparılası faktlardır.

Səhv etməyin: biz öz qoşunlarımızı Əfqanıstanda saxlamaq istəmirik. Biz orada heç bir hərbi baza saxlamaq niyyətində deyilik. Gənc kişilərimizi və qadınlarımızı itirmək Amerika üçün əzablıdır. Bu münaqişəni davam etdirmək baha başa gəlir və siyasi cəhətdən çətindir. Biz Əfqanıstan və Pakistanda mümkün qədər çox amerikalını öldürməkdə qətiyyətli olan zorakı ekstremistlərin olmadığına əmin olsaydıq, məmnuniyyətlə hər bir əsgərimizi geriyə, vətənə qaytarardıq. Lakin bu hələ baş verməyib.

Biz buna görə qırx altı ölkədən ibarət bir ittifaq ilə tərəfdaşlıq edirik. Çəkilən xərclərə baxmayaraq, Amerikanın öhdəliyi zəifləməyəcəkdir. Əslində, bizim heç birimiz bu ekstremistlərə laqeyd yanaşmamalıdır. Onlar bir çox ölkələrdə qətllər törətmişlər. Onlar müxtəlif inanclardan olan insanları öldürmüşlər – hamısından çox isə müsəlmanları qətlə yetirmişlər. Onların əməlləri insan hüquqları, millətlərin inkişafı və İslamla barışmazdır. Müqəddəs Quran bəyan edir ki, "Günahsız insanı öldürən kəs bütün insanlığı öldürmüş



kimidir; və bir insanı xilas edən kəs bütün insanlığı xilas etmiş kimidir." Bir milyarddan artıq insanın ölməz inancı bir neçə insanın dar nifrətindən nə qədər də böyükdür! İslamın zorakı ekstremizmlə müharibəyə aidiyyatı yoxdur – o, sülhü təbliğ etməyin mühüm bir hissəsidir.

Amma biz eyni zamanda bilirik ki, yalnız hərbi güc Əfqanıstan və Pakistandakı problemləri həll edən deyil. Buna görə də, biz növbəti beş il ərzində məktəblərin, xəstəxanaların və yolların tikilməsi, iş yerlərinin yaradılması məqsədilə Pakistanla əməkdaşlığa ildə 1,5 milyard dollar sərmayə qoymağı və öz yurdlarından didərgin düşmüş insanlara yardım etmək məqsədilə yüz milyonlarla dollar ayırmağı planlaşdırırıq. Və məhz buna görədir ki, biz öz iqtisadiyyatlarını inkişaf etdirməsi və insanların ehtiyac duyduğu xidmətləri göstərmələri üçün əfqanlara kömək etmək məqsədilə 2,8 milyard dollar vəsait veririk.

İcazə verin, İraq məsələsinə də toxunum. Əfqanıstandan fərqli olaraq İraq müharibəsi istəklə başlanılmış müharibə idi ki, bu da mənim ölkəmdə və bütün dünyada güclü fikir ayrılıqlarının yaranmasına rəvac verdi. Mən eyni zamanda inanıram ki, İraqda baş verən hadisələr Amerikaya mümkün olan hallarda problemlərimizi həll etmək üçün diplomatiyadan istifadə etməli olduğumuzu və beynəlxalq konsensus yaratmalı olduğumuzu xatırlatdı. (*Alqışlar*). Doğrudan da, Tomas Ceffersonun sözlərini xatırlasaq, o deyirdi: "Mən ümid edirəm ki, bizim müdrikliyimiz gücümüzlə bərabər artacaqdır və gücümüzdən nə qədər az istifadə etsək, bir o qədər yaxşı olacağını bizə öyrədəcəkdir."

Bu gün Amerikanın ikiqat məsuliyyəti vardır: İraqa özü üçün daha yaxşı gələcək qurmaqda kömək etmək və İraqı iraqlılara vermək. Mən İraq xalqına aydın şəkildə bildirmişəm ki, – (*Alqışlar*) – mən İraq xalqına aydın şəkildə bildirmişəm ki, biz orada heç bir baza saxlamaq niyyətində deyilik və onların ərazisi və ya resurslarına heç bir iddiamız yoxdur. İraqın suverenliyi onun özünündür. Ona görə də, mən cari ilin avqust ayına qədər döyüş briqadalarımızın oradan çıxarılmasını əmr etdim. Ona görə də, biz İraqın demokratik yolla seçilmiş hökuməti ilə iyula qədər hərbi hissələrimizin İraq şəhərlərindən çıxarılacağı və 2012-ci ilədək bütün qoşunlarımızın İraqdan çıxarılacağı barədə razılığa gələcəyik. (*Alqışlar*). Biz öz Təhlükəsizlik Qüvvələrinə təlim keçməkdə və iqtisadiyyatını inkişaf etdirməkdə İraqa kömək edəcəyik. Amma biz təhlükəsiz və vahid İraqı tərəfdaş

kimi dəstəkləyəcəyik, rəis kimi yox.

Və nəhayət, Amerika ekstremistlərin zorakılıqlarına göz yuma bilmədiyi kimi, biz də öz prinsiplərimizi dəyişməməli və ya unutmamalıyıq. 11 sentyabr hadisələri bizim ölkəmizə çox böyük yara oldu. Onun yaratdığı qorxu və qəzəb başa düşüləndir, lakin bəzi hallarda o, bizim öz ənənələrimizin və ideallarımızın əksinə hərəkət etməyimizə səbəb oldu. Biz kursu dəyişmək üçün konkret addımlar atırıq. Mən birmənalı şəkildə Birləşmiş Ştatlar tərəfindən zor tətbiq edilməsini qadağan etmişəm və Quantanamo körfəzindəki həbsxananın gələn ilin əvvəlinədək bağlanılmasını əmr etmişəm. (*Alqışlar*).

Beləliklə, Amerika dövlətlərin müstəqilliyinə və qanunun aliliyinə hörmət etməklə özünü müdafiə edəcəkdir. Və biz bunu təhlükəyə məruz qalmış müsəlman xalqları ilə birgə tərəfdaşlıq zəminində edəcəyik. Ekstremistlər müsəlman icmalarında nə qədər tez təcrid olunsalar və pis qarşılansalar, biz hamımız bir o qədər tez təhlükəsiz olacağıq.

GƏRGİNLİYİN İKİNCİ MƏNBƏYİ: İSRAİLLİLƏR, FƏLƏSTİNLİLƏR VƏ ƏRƏB DÜNYASI

Gərginliyin bizim müzakirə etməyə ehtiyac duyduğumuz ikinci ən böyük mənbəyi israillilər, fələstinlilər və ərəb dünyası arasındakı vəziyyətdir. Amerikanın İsrail ilə güclü əlaqələri hamıya yaxşı məlumdur. Bu əlaqələr qırılmazdır. Bu, mədəni və tarixi bağlara əsaslanır.

Yəhudilər bütün dünyada əsrlər boyu təzyiqlərə məruz qalmışlar və Avropada antisemitizm misli görünməmiş Holokastla öz kulminasiya nöqtəsinə çatdı. Sabah mən Üçüncü Reyx tərəfindən yəhudilərin kölə edildiyi, işgəncələrə məruz qaldığı, güllələndiyi və qazla boğulduğu düşərgələr şəbəkəsinin bir hissəsi olmuş Buhenvalda səfər edəcəyəm. Altı milyondan artıq – bugünkü İsrailin yəhudi əhalisindən də çox yəhudi öldürülmüşdür. O faktı inkar etmək əsassızdır, laqeydlikdir və nifrətlə bağlıdır. İsraili məhv etməklə hədələmək və yaxud yəhudilər barədə alçaldıcı stereotipləri təkrar etmək kökündən yanlışdır və yalnız israillilərin düşüncələrində o ağrılı günlərin xatirəsini oyatmağa və bu regionun əhalisinin layiq olduğu sülhün qarşısını almağa xidmət edir.

Digər tərəfdən, Fələstin xalqı da – həm müsəlmanlar, həm də xristianlar – vətənlərini yaratmaq üçün əziyyətlərə məruz qalmışlar. Altmış ildən artıqdır ki, onlar qaçqınlıq ağrısına qatlaşmalı olublar. Bir çoxları Qəzza çayının qərb sahilində, Qəzzada və qonşu ərazilərdəki qaçqın düşərgələrində sülh və təhlükəsiz həyat sürməyi gözləyirlər. Onlar işğalın gətirdiyi irili-xırdalı gündəlik məhrumiyyətlərə dözürlər. Beləliklə, qoyun heç bir şübhə olmasın: Fələstin xalqının vəziyyətinə göz yumula bilməz. Amerika fələstinlilərin şərəf, imkan və öz dövlətlərinə sahib olma kimi legitim haqlarına arxasını çevirməyəcəkdir. (*Alqışlar*).

Onilliklər boyu çıxılmaz vəziyyət olmuşdur: legitim haqlara malik olan iki xalqın hər birinin ağrılı tarixi kompromisi əlçatmaz edir. Barmaqla işarə etmək asandır – fələstinlilər İsrailin yaradılması ilə başlanan qaçqınlıq həyatına, israillilər də öz tarixi boyu həm öz sərhədləri daxilindən, həm də onun kənarlarından daimi düşmənçiliyə və hücumlara məruz qalmalarına. Amma əgər biz bu münaqişəyə bu və ya digər tərəfdən baxsaq, biz həqiqəti görə bilməyəcəyik; yeganə çıxış yolu hər iki tərəfin iki dövlət kimi görüşdürülməsidir ki, burada israillilər və fələstinlilər hər biri sülh və təhlükəsizlik şəraitində yaşayacaqlar. (*Alqışlar*).


Bu, İsrailin də marağındadır, Fələstinin də marağındadır, Amerikanın da marağındadır və dünyanın da marağındadır. Ona görə də, mən şəxsən bu vəzifənin tələb etdiyi səbr və sədaqətlə bu nəticəyə nail olmaq niyyətindəyəm. (*Alqışlar*). Yol Xəritəsi çərçivəsində tərəflərin razılaşdığı öhdəliklər aydındır. Sülhün yaranması üçün onlar – və biz hamımız – öz məsuliyyətimizi anlamalıyıq.

Fələstinlilər iğtişaşlardan əl çəkməlidirlər. İğtişaşlar və qətllər yolu ilə müqavimət göstərmək yanlışdır və uğur gətirmir. Əsrlər boyu Amerikada qara dərili insanlar qul kimi qamçı zərbələrindən və irqi ayrı-seçkiliyin gətirdiyi məhrumiyyətlərdən əziyyət çəkmişlər. Amma onlar tam və bərabər hüquqlara iğtişaşlar sayəsində deyil, Amerikanın əsasını təşkil edən idealların gerçəkləşməsi uğrunda dinc və inadlı mübarizə nəticəsində nail oldular. Bu eyni hekayəni Cənubi Afrikadan Cənubi Asiyaya, Şərqi Avropadan İndoneziyaya qədər bütün xalqlar danışa bilər. Bu, sadə bir həqiqəti olan hekayədir: iğtişaş heç yerə aparıb çıxarmır. Yatan uşaqlara raket atmaq və ya qoca qadınları avtobusda partlatmaq nə

cəsarətin, nə də gücün əlaməti deyil. Mənəvi hakimiyyətə bu yolla iddia olunmur; bu yolla o, əldən verilir.

İndi fələstinlilər üçün onların nəyi inşa edə biləcəkləri üzərində diqqəti cəmləmələrinin vaxtıdır. Fələstin Hakimiyyəti öz xalqının ehtiyaclarına xidmət edən institutlarla hakimiyyəti idarə etmək qabiliyyətini inkişaf etdirməlidir. Həmasın bəzi fələstinlilər arasında dəstəyi vardır, lakin onlar qəbul etməlidirlər ki, onlar da məsuliyyət daşıyırlar. Fələstinlilərin haqlarının həyata keçirilməsində rol oynamaq üçün və Fələstin xalqını birləşdirmək üçün Həmas iğtişaşlara son qoymalı, keçmiş razılaşmaları tanımalı və İsrailin mövcud olma hüququnu tanımalıdır.

Eyni zamanda, İsrail də qəbul etməlidir ki, İsrailin mövcud olma haqqı rədd edilə bilinmədiyi kimi, Fələstinin də mövcud olma haqqı rədd edilə bilməz. Birləşmiş Ştatlar israillilərin davamlı olaraq məskunlaşmalarının qanuniliyini tanımır. (*Alqışlar*). Bu tikinti işləri əvvəlki razılaşmaları pozur və sülhə nail olma səylərini iflasa uğradır. Bu məskunlaşmaların dayandırılmasının vaxtıdır. (*Alqışlar*).



İsrail, həmçinin, fələstinlilərin yaşamasına, işləməsinə və öz cəmiyyətlərini qurmasına nail olmaları üçün götürdüyü öhdəliklərə əməl etməlidir. Və Fələstin ailələrini dağıtdığı kimi, Qəzzada davam edən humanitar böhran da İsrailin təhlükəsizliyinə xidmət etmir; Qəzza çayının qərb sahilində imkanların olmamasının davam etməsi də eynilə. Fələstin əhalisinin gündəlik həyat şəraitinin yaxşılaşması sülhə gedən yolun mühüm bir hissəsi olmalıdır və İsrail buna imkan yaratmaq üçün konkret addımlar atmalıdır.

Nəhayət, ərəb dövlətləri də qəbul etməlidirlər ki, Ərəb Sülh Təşəbbüsü mühüm bir başlanğıc idi, lakin onların məsuliyyətlərinin sonu demək deyildi. Ərəb dövlətlərini digər problemlərdən yayındırmaq üçün ərəb-israil münaqişəsindən bir daha istifadə edilməməlidir. Əksinə, bu, Fələstin xalqına öz dövlətini saxlayacaq institutların inkişaf etdirilməsində kömək etmək; İsrailin legitimliyini qəbul etmək; və keçmişdə olmuş özünüməğlubiyyət əvəzinə tərəqqini seçmək üçün bir səbəb olmalıdır.

Amerika öz siyasətini sülh axtaranlarla uyğunlaşdıracaqdır və israillilərə, fələstinlilərə və ərəblərə qapalı şəraitdə dediyini açıq şəkildə də deyəcəkdir. (*Alqışlar*). Biz sülhü məcburən yeridə bilmərik. Amma öz-özlüyündə bir çox müsəlman anlayır ki, İsrail yoxa çıxan deyil. Eynilə bir çox israilli də anlayır ki, Fələstin dövlətinə ehtiyac vardır. Hər bir kəsin həqiqət olaraq bildiyi məsələ üzrə addımlar atmağımızın vaxtıdır.

Çox göz yaşları axıdılmışdır. Çox qanlar tökülmüşdür. Bizim hamımız israilli və fələstinli anaların öz uşaqlarının qorxu olmadan böyüməsini görə biləcəyi; üç böyük dinin Müqəddəs Torpağının Allahın istədiyi kimi sülh məkanı olacağı; Qüdsün yəhudilər, xristianlar və müsəlmanlar üçün təhlükəsiz və əbədi vətən olacağı və İsra surəsində deyildiyi kimi – (*Alqışlar*) – İsra surəsində deyildiyi kimi, Musa, İsa və Məhəmmədin (hər üçünə Allahın salamı olsun) birlikdə ibadət etdiyi, bütün İbrahim övladlarının dinc şəkildə bir-birinə qarışacağı bir məkan olacağı bir gün üçün işləməyə məsuliyyət daşıyırıq. (*Alqışlar*).

Qahirə universiteti



GƏRGİNLİYİN ÜÇÜNCÜ MƏNBƏYİ: DÖVLƏTLƏRİN NÜVƏ SİLAHI ÜZRƏ HÜQUQLARI VƏ MƏSULİYYƏTLƏRİ

Gərginliyin üçüncü mənbəyi dövlətlərin nüvə silahı üzrə hüquqları və məsuliyyətləri sahəsində bizim ortaq maraqlarımızdır. Bu məsələ Birləşmiş Ştatlar və İran İslam Respublikası arasında gərginlik mənbəyi olmuşdur. Bir çox illərdir ki, İran özünü mənim ölkəmə qarşı çıxmaqla tanıtmışdır və bizim aramızda həqiqətən də səs-küylü bir tarix yaşanır. Soyuq Müharibənin ortasında Birləşmiş Ştatlar demokratik yolla seçilmiş İran hökumətinin devrilməsində rol oynamışdır. İslam İnqilabından bəri İran ABŞ əsgərlərinə və mülki vətəndaşlarına qarşı əsir götürmə və zorakılıq əməllərində rol oynamışdır. Bu tarix yaxşı bəllidir. Keçmişin əsiri olmaq əvəzinə mən İran rəhbərliyinə və xalqına aydın şəkildə bəyan etmişəm ki, mənim ölkəm irəliyə doğru addım atmağa hazırdır. İndi məsələ İranın nəyin əleyhinə olduğu deyil, onun nə kimi gələcək qurmaq istəməsindədir.

Onilliklər boyu yaranmış qarşılıqlı inamsızlığa qalib gəlmək çətin olacaq, amma biz cəsarətlə və vicdanla davam edəcək və həll edəcəyik. Bizim dövlətlər arasında müzakirə edilməli çox məsələlər olacaqdır və biz qarşılıqlı hörmət əsasında heç bir ilkin şərt olmadan irəliyə doğru addım atmaq istəyirik. Amma maraqlı olan hər kəsə aydındır ki, söhbət nüvə silahından gedirsə, biz həlledici məqama yetişmişik. Bu, sadəcə olaraq Amerikanın maraqları ilə bağlı deyil. Bu, Yaxın Şərqdə bu regionu və bütün dünyanı həddən artıq təhlükəli bir yola sürükləyə biləcək nüvə silahı ilə silahlanma yarışının qarşısını almaq üçündür.

Mən bəzi ölkələrin nüvə silahına malik olması, qalanlarının isə olmamasına etiraz edənləri başa düşürəm. Hansı dövlətlərin nüvə silahına malik olmasını hər hansı bir dövlət müəyyən etməməli və seçməməlidir. Məhz buna görə də, mən Amerikanın heç bir dövlətin nüvə silahına malik olmadığı bir dünyaya nail olmaq barədə öhdəliklərini bir daha qətiyyətlə təsdiq etdim. (*Alqışlar*). Və hər bir dövlətin, o cümlədən də İranın, əgər Nüvə Silahının Yayılmaması haqqında Müqavilə çərçivəsində boynuna götürdüyü məsuliyyətlərinə uyğundursa, nüvə enerjisindən

sülh məqsədilə istifadə etməyə haqqı olmalıdır. Bu öhdəlik həmin Müqavilənin ana xəttidir və ona tam şəkildə cavab verənlərin hamısı üçün saxlanılmalıdır. Və mən ümid edirəm ki, regiondakı bütün dövlətlər bu məqsəddə ortaqdırlar.

DÖRDÜNCÜ MƏSƏLƏ: DEMOKRATİYA

Mənim müzakirə edəcəyim dördüncü məsələ demokratiyadır. (*Alqışlar*). Mən bilirəm ki, son illər demokratiyanın yayılması barədə ziddiyyətlər olmuşdur və bu ziddiyyətlərin çoxu İraqdakı müharibə ilə bağlıdır. Ona görə də, icazə verin aydınlaşdırım: heç bir hakimiyyət sistemi hər hansı bir dövlət tərəfindən digərinə zorla qəbul etdirilə bilməz və ya etdirilməməlidir.

Amma bu, mənim xalqın iradəsini əks etdirən hökumətlər qarşısında götürdüyüm öhdəlikləri azaltmır. Hər bir dövlət öz xalqının ənənələrində kök atmış özünəməxsus yolla bu prinsipi həyata keçirir. Amerika hər bir kəs üçün nəyin ən yaxşı olduğunu bildiyini iddia etmir, necə ki, biz dinc seçkinin nəticələrinə kölgə salmağı iddia etmərik. Lakin mənim sarsılmayan bir inancım var ki, bütün xalqlar konkret şeylərə istəklə can atırlar: beynində olanları danışa bilmək və necə idarə olunması barədə öz sözünü demək; qanunun aliliyinə və ədalətin hamı üçün bərabərliyinə inam; şəffaf olan və öz xalqından oğurluq etməyən hökumət; istədiyi yerdə yaşamağı seçmək azadlığı. Bunlar Amerika ideyaları deyil, bunlar insan haqlarıdır və buna görə də, biz onları hər yerdə müdafiə edəcəyik. (*Alqışlar*).

Bu vədi gerçəkləşdirməyin hər hansı konkret yolu yoxdur. Amma bu qədəri aydındır: bu haqları müdafiə edən hökumətlər mütləq olaraq daha stabil, uğurlu və təhlükəsizdirlər. İdeyaları boğmaq heç zaman onları uzaqlaşdırmağa nail olmur. Amerika bütün dünyada, hətta biz onlarla razılaşmasaq belə, dinc və qanuna tabe olan səslərin eşidilmək hüququna hörmət edir. Və biz seçilən bütün sülhpərvər hökumətləri, əgər onlar bütün xalqını hörmət edərək idarə edəcəksə, alqışlayırıq.

Bu son məqam vacibdir, çünki bəziləri yalnız hakimiyyətdə olmadıqları zaman demokratiyanı təbliğ edirlər; hakimiyyətə gəldikdən sonra isə başqalarının hüquqlarının tapdanmasında amansız olurlar. (*Alqışlar*). Hakimiyyətdə olmağın haraya aparıb çıxarmasından asılı olmayaraq, xalqın olan və xalq tərəfindən seçilən hökumət hakimiyyətdə olanların hamısı üçün vahid standart müəyyən edir: hakimiyyət güc tətbiq etməklə deyil, razılıqla saxlanılmalıdır; azlıqların hüquqları qorunmalı və tolerantlıq və kompromis əhval-ruhiyyəsilə hərəkət edilməlidir; xalqın maraqları və siyasi prosesin legitim nəticələri partiya maraqlarından üstün tutulmalıdır. Bu komponentlər olmadan təkcə seçkilər əsl demokratiya yaratmır.

ZALDAKI DİNLƏYİCİLƏRDƏN BİRİ: Barak Obama, biz səni sevirik!

PREZİDENT OBAMA: Təşəkkür edirəm! (*Alqışlar*).

BEŞİNCİ MƏSƏLƏ: DİNİ AZADLIQ

Bizim müzakirə edəcəyimiz beşinci məsələ dini azadlıqdır. İslamın fəxr edilməli olan tolerantlıq ənənəsi vardır. Biz bunu İnkvizisiya dövründə Əndəlis və Kordova tarixində görürük. Mən uşaq ikən müsəlmanların böyük çoxluq təşkil etdiyi bir ölkədə - İndoneziyada mömin xristianların sərbəst ibadət etdiyinin şahidi olmuşam. Bu gün bizim bu əhval-ruhiyyəyə ehtiyacımız var. Hər bir ölkədə yaşayan insanlar ağıllarının, ürəklərinin və könüllərinin istədiyi kimi öz inanclarını seçməkdə və onunla yaşamaqda azad olmalıdırlar. Bu tolerantlıq dinin inkişafı üçün əsasdır, lakin buna bir çox müxtəlif yollarla mane olurlar.

Bəzi müsəlmanlar arasında öz dinini başqalarının dinini rədd etməklə ölçmək kimi təşvişedici bir tendensiya vardır. Dini müxtəlifliyin zənginliyi saxlanılmalıdır – istər Livanda yaşayan maronitlər olsun, istərsə də Misirdə yaşayan koptlar. (*Alqışlar*). Müsəlmanlar arasındakı yanlış yollar da bağlanılmalıdır, çünki konkret olaraq İraqda sünnilərlə şiələr arasındakı ayrılıqlar dəhşətli zorakılıqlara aparıb çıxarmışdır.

Din azadlığı insanların birgə yaşaya bilməsi üçün mərkəzi rol oynayır. Biz onu qorumaq üçün daima yollar aramalıyıq. Misal üçün, Birləşmiş Ştatlarda xeyriyyə məqsədilə verilən ianələr haqqında qaydalar müsəlmanların öz dini öhdəliklərini yerinə yetirmələrini çətinləşdirmişdir. Buna görə də, mən amerikalı müsəlmanların zəkat ibadətini yerinə yetirə bilmələri üçün onlarla birgə işləməyi öz boynuma götürmüşəm.

Eləcə də Qərb ölkələrinin müsəlman

vətəndaşların öz dininə istədikləri kimi ibadət etmələrinə mane olmaqdan çəkinmələri vacibdir – məsələn, müsəlman qadının hansı paltarı geyməsini əmr etmək. Biz liberalizm iddiası ilə hər hansı dinə qarşı düşmənçiliymizi maskalaya bilmərik.

Əslində, inanc bizi bir yerə toplamalıdır. Ona görə də, biz Amerikada xristianları, müsəlmanları və yəhudiləri bir araya gətirən xidmət layihələri üzərində düşünürük. Ona görə də, biz Səudiyyə Ərəbistanı Kralı Abdullahın Dinlərarası Dialoq və Türkiyə rəhbərliyinin Sivilizasiyaların İttifaqı kimi səylərini alqışlayırıq. Biz bütün dünyada dialoqu dinlərarası xidmətə çevirə bilərik, beləliklə də xalqlar arasındakı körpü əməllərlə nəticələnər – istər Afrikada malyariyaya qarşı mübarizə olsun, istərsə də təbii fəlakətdən sonra yardımın verilməsi olsun.

ALTINCI MƏSƏLƏ: QADINLARIN HÜQUQLARI

Mənim müzakirə etmək istədiyim altıncı məsələ qadınların hüquqlarıdır. (*Alqışlar*). Bilirəm və elə bu auditoriyadan deyə bilərəm ki, bu məsələ ətrafında sağlam müzakirələr vardır. Mən Qərbdə saçını örtmək istəyən qadınların daha az hüquqlu olduğu fikrini irəli sürənlərin baxışını rədd edirəm, amma mən inanıram ki, təhsildən məhrum edilən qadınlar bərabərlikdən məhrum edilirlər. (*Alqışlar*). Və təsadüfi deyildir ki, qadınların yaxşı təhsil aldığı ölkələr daha çox inkişaf etmişlər.

İndi isə icazə verin dəqiqləşdirim: qadınların bərabərliyi məsələsi heç bir halda yalnız İslam üçün problem deyil. Türkiyə, Pakistan, Banqladeş, İndoneziya kimi müsəlmanların əksəriyyət təşkil etdiyi ölkələrdə ölkə başçısı kimi qadınların seçildiyinin şahidi olmuşuq. Eyni zamanda, qadınların bərabərliyi uğrunda mübarizə Amerika həyatının da bir çox cəhətlərində və bütün dünya ölkələrində davam edir.

Mən inanıram ki, bizim qızlarımız cəmiyyətə oğullarımız qədər fayda verə bilərlər (*Alqışlar*). Bütün insanlara – kişilərə və qadınlara özlərinin tam potensialına nail olmalarına imkan verməklə bizim ümumi inkişafımız irəli gedəcəkdir. Mən inanmıram ki, qadınlar bərabər olmaq üçün mütləq kişilərin etdiyi seçimləri etməlidirlər və mən öz həyatını ənənəvi rolla yaşamağı seçən qadınlara hörmət bəsləyirəm. Amma bu, onların seçimi olmalıdır. Ona görə də, Birləşmiş Ştatlar qızlara geniş təhsil verməyi dəstəkləmək və gənc qadınlara onların öz arzularını gerçəkləşdirməyə kömək etmək niyyətilə mikro-maliyyələşdirmə yolu ilə onların işləməsinə kömək etmək məqsədilə istənilən müsəlman ölkəsi ilə tərəfdaşlıq edəcəkdir. (*Alqışlar*).

İQTİSADİ İNKİŞAF VƏ İMKANLAR

Nəhayət, mən iqtisadi inkişaf və imkanları müzakirə etmək istəyirəm. Mən bilirəm ki, bir çoxları üçün qloballaşma faktı ziddiyyətlidir. İnternet və televiziya bilik və məlumat verdiyi kimi, evlərə təhqiramiz cinsəllik və ağılsız zorakılıqlar da gətirir. Ticarət yeni var-dövlət və imkanlar da yarada bilər, böyük süquta və icmaların dəyişməsinə də gətirib çıxara bilər. Bütün dövlətlərdə, o cümlədən də mənim öz ölkəmdə bu dəyişiklik qorxu yarada bilər: müasirlik üzündən bizim öz iqtisadi seçimlərimizi, siyasətimizi və ən əsası isə öz cəmiyyətimiz, ailələrimiz, ənənələrimiz və dinimiz barədə ən çox sevdiyimiz, qayğısına qaldığımız şeyi – öz kimliymizi itirmək qorxusu.

Amma mən, eyni zamanda, bilirəm ki, insanın tərəqqisinin qarşısı alına bilməz. İnkişaf ilə ənənə arasında ziddiyyətin olmasına ehtiyac yoxdur. Yaponiya və Cənubi Koreya kimi ölkələr öz fərqli mədəniyyətlərini saxlamaqla iqtisadiyyatlarını inkişaf etdirirlər. Eyni şey Kuala-Lumpurdan tutmuş Dubaya qədər müsəlmanların əksəriyyət təşkil etdiyi ölkələrdə heyrətamiz tərəqqi üçün də doğrudur. Qədim zamanlarda da, indi də müsəlman cəmiyyətləri yenilikçilik və təhsilin ön sıralarında olmuşlar.

Bu çox vacibdir, çünki heç bir inkişaf strategiyası yerdən çıxan şeylərə əsaslanmır və gənc insanların işləmədiyi bir şəraitdə davamlı ola bilməz. Körfəz ölkələrinin çoxu neftin nəticəsi olaraq böyük var-dövlət sahibi olmuşlar və bəziləri daha geniş inkişaf üzərində diqqəti cəmləyirlər. Lakin hamımız qəbul etməliyik ki, 21-ci əsrin pul vahidi təhsil və yenilikçilik olacaqdır – (*Alqışlar*) – və bir çox müsəlman ölkələrində bu sahələrə kifayət qədər sərmayə qoyulmur. Mən bu kimi sərmayələrə öz ölkəmdə xüsusi diqqət yetirirəm. Və əvvəllər Amerika dünyanın bu regionunda neft və qaz üzərində diqqəti cəmləmişdisə, indi biz daha geniş əməkdaşlığa çalışırıq.

Təhsil sahəsində biz mübadilə proqramlarını genişləndirəcəyik və mənim atamı Amerikaya gətirən təqaüdlər kimi təqaüdləri artıracağıq, eyni zamanda, daha çox amerikalını müsəlman cəmiyyətlərində təhsil almağa həvəsləndirəcəyik. (*Alqışlar*). Eyni zamanda, biz istedadlı müsəlman tələbələri Amerikadakı iş təcrübəsi proqramlarına cəlb edəcəyik; bütün dünyada tələbələr və müəllimlər üçün internet vasitəsilə təhsilə sərmayə qoyacağıq; və internet vasitəsilə elə bir yeni şəbəkə yaradacağıq ki, Kanzasdakı gənc birbaşa olaraq Qahirədəki gənc ilə ünsiyyət yarada bilsin.

İqtisadi inkişaf sahəsində biz müsəlmanların çoxluq təşkil etdiyi ölkələrdə öz tərəfmüqabilləri ilə tərəfdaşlıq etmək üçün yeni biznes könüllüləri ordusu yaradacağıq. Və mən bu il Birləşmiş Ştatların və bütün dünyadakı müsəlman ölkələrinin aparıcı iş adamları, fondları və ictimai müəssisələri arasındakı əlaqələri necə dərinləşdirə biləcəyimizi müəyyən etmək üçün Sahibkarlıq Sammitinə ev sahibliyi edəcəyəm.

Elm və texnologiya sahəsində biz müsəlman ölkələrində texnoloji inkişafı dəstəkləmək və onların iş yerləri yarada bilməsi üçün ideyaların bazara çıxarılması məqsədilə yeni fond yaradacağıq. Biz Afrikada, Yaxın və Orta Şərqdə, Cənubi Asiyada elmi nailiyyət mərkəzləri açacaq və yeni enerji mənbələrinin inkişaf etdirilməsi, ekoloji baxımdan təmiz iş yerlərinin yaradılması, yazıların rəqəmsallaşdırılması, təmiz su və yeni məhsulların istehsal edilməsi proqramları üzrə əməkdaşlıq etmək məqsədilə Elmi Səfirlər təyin edəcəyik. Həmçinin, mən bu gün İslam Konfransı Təşkilatı ilə birgə poliomielit xəstəliyinin kökünün kəsilməsi üçün yeni qlobal təşəbbüsü bəyan edirəm. Biz, həmçinin, uşaq və anaların sağlamlığını təbliğ etmək məqsədilə müsəlman cəmiyyətlərilə əməkdaşlığımızı genişləndirəcəyik.

Bütün bunlar tərəfdaşlıq şəraitində həyata keçirilməlidir. İnsanlarımızın daha yaxşı həyata nail olmalarına kömək etmək üçün amerikalılar bütün dünyadakı müsəlman cəmiyyətlərinin vətəndaşları və hökumətləri, ictimai təşkilatları, dini rəhbərləri və iş adamları ilə bir araya gəlməyə hazırdır.

Mənim sadaladığım problemlərin həll edilməsi asan olmayacaq. Amma bizim nail olmağa çalışdığımız dünya – ekstremistlərin bizim insanlarımızı bir daha qorxutmadığı və Amerika qoşunlarının vətənə qayıtdığı, israillilərin və fələstinlilərin hər birinin öz ölkəsində təhlükəsiz yaşadığı və nüvə enerjisinin dinc məqsədlərlə istifadə edildiyi, hökumətlərin öz vətəndaşlarına xidmət etdiyi və Allahın bütün qullarının hüquqlarına hörmət edildiyi bir dünya naminə bir araya gəlmək bizim öhdəliyimizdir. Bizim nail olmağa çalışdığımız dünya budur. Amma biz ona yalnız birlikdə nail ola bilərik.

Bilirəm ki, bizim bu yeni başlanğıcı irəliyə apara bilib bilməyəcəyimizə şübhə ilə yanaşan bir çoxları – həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar vardır. Bəziləri parçalanma alovunu qızışdırmağa və tərəqqinin qarşısını almağa can atırlar. Bəziləri buna cəhd etməyə dəyməyəcəyini, fikir ayrılığının bizim taleyimizdə olduğunu və sivilizasiyaların toqquşmağa məhkum olduqlarını irəli sürürlər. Bir çoxları isə, sadəcə, gerçək dəyişikliklərin baş verəcəyinə şübhə ilə yanaşırlar. O qədər qorxu, o qədər inamsızlıq var ki! Ancaq əgər biz keçmişə bağlı qalsaq, onda irəliyə doğru gedə bilməyəcəyik. Və mən bunu xüsusilə hər bir ölkədəki hər bir dindən olan gənclərə söyləmək istəyirəm: hamıdan çox siz bu dünyanı yenidən formalaşdırmağa, yenidən qurmağa qadirsiniz.

Müharibələri başlamaq onlara son qoymaqdan asandır. Özümüzə baxmaqdansa başqalarını ittiham etmək, kiminsə bizimlə olan ortaq nöqtəsini tapmaqdansa onun nə ilə bizdən fərqləndiyini araşdırmaq daha asandır. Amma biz asan yolu deyil, düzgün yolu seçməliyik. Həmçinin, bütün dinlərin özəyində yatan bir qayda da vardır: biz başqaları ilə onların bizimlə necə rəftar etməyini istədiyimiz kimi rəftar etməliyik. (Alqışlar). Bu həqiqət dövlətlərdən və xalqlardan uzağa gedir; o, yeni bir inanc deyil; o, qara, ağ və ya qəhvəyi deyil; o, xristianın, müsəlmanın və ya yəhudinin də deyil. O, sivilizasiyanın beşiyində döyünmüş və hal-hazırda da milyardların qəlbində döyünən bir inancdır. O, başqa insanlara inamdır və məni bu gün buraya gətirən də odur.

Biz nail olmaq istədiyimiz dünyanı yarada bilərik, yetər ki, yazılanları unutmamaqla yeni başlanğıc yaratmağa cəsarətimiz olsun.

Müqəddəs Quran bizə buyurur: "Ey insanlar! Biz sizi kişilər və qadınlar olaraq xəlq etdik və biz sizi xalqlara və tayfalara ayırdıq ki, bir-birinizi tanıyasınız."

Tövratda bizə deyilir: "Bütün Tövrat sülhü təbliğ etmək məqsədi üçündür."

Müqəddəs İncildə bizə deyilir: "Sülhü yaradanlar xeyir-dua qazananlardır, çünki onlar Allahın övladları adlandırılmağa layiqdirlər." (Alqışlar).

Dünyadakı insanlar sülh şəraitində birgə yaşaya bilərlər. Biz bilirik bu, Allahın istədiyidir. Onda o, bizim buradakı Yer üzərindəki işimiş olmalıdır.

Təşəkkür edirəm. Və Allahın salamı üzərinizə olsun! Çox sağ olun. (Alqışlar).

АНАЛИТИКА

Азербайджан: доминирующий субъект проектов региональной политической трансформации Южного Кавказа

«Новая восточная политика» США, которую начал реализовывать американский президент Барак Обама, включает в себя несколько направлений: Афганистан, Центральная Азия, Иран, Ирак, Ближний Восток и Кавказ.

Очевидно, что кавказская политика США, в первую очередь, будет ориентирована на участие Соединенных Штатов в назревшей и неизбежной «большой политической трансформации» Южного Кавказа, что предусматривает, как модернизацию государственно-политических систем, так и ротацию политических элит.

Прошлогодний конфликт между Россией и Грузией в Южной Осетии стал следствием обострения политической конкуренции в южно-кавказском регионе за выбор модели «большой политической трансформации». Основными вопросами, которые предстоит решить заинтересованным участникам этой конкурентной политической игры, являются определение доминирующего «внешнего оператора» модернизации, а также формат взаимодействия его с доминирующим «внутренним», региональным субъектом трансформации.

Несмотря на значительное количество заинтересованных в «южно-кавказской игре» внешних политических субъектов (Россия, США, Евросоюз, Турция, Иран, Китай), основная конкуренция сегодня развернулась между российским и американским проектами трансформации.

Очевидно, что российская внешняя стратегия опирается на несколько элементов:

- стратегический союз РФ и Армении;
- дружественная коалиция РФ и Азербайджана (основанная, в первую очередь, на общности экономических интересов в энергетической сфере);
- демонтаж грузинского государства и актуального политического режима в Тбилиси;
- предотвращение усиления американского влияния в регионе Южного Кавказа.

Российская модель трансформации Южного Кавказа, таким образом, предполагает опору на альянс Москвы и Еревана при подключении к нему Баку и нейтрализации Тбилиси.

В свою очередь, американская стратегия (до осени 2008 года) предполагала, во-первых, использование в качестве регионального «внутреннего» субъекта для реализации проекта трансформации союз с Грузией при одновременном укреплении отношений с Азербайджаном (через совместные энергетические проекты, а также через «афганской проект» НАТО) и затем постепенный «вывод» Армении из зоны исключительно российского влияния.

Таким образом, США предполагали использовать в южно-кавказской стратегии принцип постепенного привлечения к американо-грузинскому партнерству соседних кавказских демократий и формирование некоего «общего кавказского сообщества», без разделения его составных элементов на государства «первого» и «второго сорта».

Однако, августовская война 2008 года в Южной Осетии не только еще больше актуализировала проблематику системной трансформации южно-кавказских государственно-политических режимов, но и, фактически, разрушила системообразующий элемент американской модели модернизации региона. Военное поражение Грузии и последовавшая за этим эскалация внутриполитической нестабильности в Тбилиси обострили вопрос о том, кто сможет стать новым автором модернизационного процесса.

Очевидно, что основным претендентом на эту роль сегодня выступает Азербайджан. В пользу такого утверждения свидетельствуют несколько факторов.

Во-первых, политический режим в Азербайджане является одним из самых стабильных на Южном Кавказе (по оценкам ряда

экспертов – самым стабильным). И, в отличие от Грузии, этот режим не нуждается во «внешних подпорках».

Во-вторых, правящие элиты в Баку, при сохранении комплиментарных отношений с Москвой, тем не менее, сохраняют стратегическую внешнеполитическую «равноудаленность»: Азербайджан не так жестко ориентирован на Россию, как Армения, но при этом не позиционирует себя и в качестве «регионального русофобского режима», подобно нынешнему Тбилиси. Это дает Баку уникальную для Южного Кавказа возможность для стратегических внешнеполитических маневров.

В-третьих, Азербайджан нашел достаточно эффективную формулу сотрудничества с США и государствами НАТО (энергетические проекты и «афганский проект» НАТО), позволяющую выступать не только в качестве «потребителя благ» системы атлантической солидарности (чем «грешила» Грузия), но и в качестве «ресурсного донора» для атлантического сообщества. Азербайджану отводится крайне важная роль в «афганской миссии» НАТО (как существенному элементу «северного транспортного коридора» по снабжению сил ISAF). Причем, «азербайджанский коридор» является транспортной артерией с двухсторонним движением: с запада на восток через Азербайджан осуществляется снабжение афганской группировки НАТО, а с востока на запад (из Центральной Азии в Евросоюз) транспортируются энергоресурсы (трубопровод Тбилиси-Баку-Джейхан, газовый транзит Nabucco).

Наконец, в-четвертых, Азербайджан может стать важнейшим элементом международной игры вокруг Ирана (Баку может успешно воздействовать на социально-политическую ситуацию в Иране через многочисленную азербайджанскую общину). Учитывая повышенное внимание к «иранскому вопросу» со стороны Соединенных Штатов и Евросоюза, значение «азербайджанского фактора» в регионе будет еще больше возрастать. Весь мир пристально следит за событиями происходящими в соседней стране

Таким образом, Азербайджан в ближайшее время вполне может взять на себя роль ведущего автора политической модернизации Южного Кавказа.

Говоря о возможных перспективах эволюции южно-кавказских государственных систем, следует отметить три вероятных сценария развития взаимоотношений кавказских демократий.

Сценарий 1: формирование стратегического регионального союза Азербайджана и Армении (на основе оптимального и конструктивного решения карабахского вопроса, посредством возвращения беженцев на родные места, предоставления высокого статуса автономии проживающим в регионе азербайджано-армянской общине). Несмотря на кажущуюся в настоящее время фантастичность такого сценария, на наш взгляд, не стоит его списывать со счетов, тем более, что именно карабахский вопрос привлекает к себе растущее внимание, как России, так США и Евросоюза и Азербайджан со своей стороны придает максимальное значение скорейшему разрешению конфликта в основных принципов международного права, в рамках территориальной целостности и принципа суверенитета Азербайджана и поддерживает последние предложения Минской группы. У Азербайджана достаточно не только политического и ресурсного потенциала для утверждения своей более чем конкретной позиции, но самое важное то, что Азербайджан в его конструктивной позиции поддерживает международное сообщество.

Сценарий 2: стратегический союз Азербайджана и Грузии (в этой связи выглядят особенно интересными недавние заявления грузинского президента Михаила Саакашвили о возможных конфедеративных отношениях Тбилиси и Баку) и в этой связи важнейшую роль играет тот факт, что эти южно-кавказские республики являются ближайшими партнерами в области политического, экономического и социального партнерства на протяжении последних 15-ти лет и в этом большая заслуга политического руководства Азербайджана.

Сценарий 3: создание Южно-Кавказского Союза (по аналогии с Европейским Союзом), включающего в себя Азербайджан, Грузию и Армению. В случае реализации «третьего сценария», именно от позиции Баку, на наш взгляд, зависит успех южно-кавказской интеграции.


Актуальный сегодня проект «Восточного партнерства» вполне способен стать прологом к реализации проекта Южно-кавказского Союза.

Камран БЕХБУДОВ,

Центр Исследований Стратегических Моделей Южного Кавказа

Tələbələrimizin yaradıcılığı

Nəriman Həsənzadə yaradıcılığına bir tələbə baxışı



Müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi – şair, dramaturq, yazıçı və publisist Nəriman Əliməmməd oğlu Həsənzadə 1931-ci il fevralın 18-də Qazax rayonunun Poylu kəndində anadan olmuşdur. Kiçik yaşından atasız qalmışdır. Uşaqlıqdan ədəbiyyata böyük həvəs göstərən şair yeddinci sinifdə oxuyarkən ilk şeirini – "Ağlaram" adlı şeirini yazır (bu şeir məktəbin divar qəzetində verilmişdi).

1949-cu ildə orta məktəbi bitirdikdən sonra Gəncə Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinə daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir. 1954-cü ildə S.Vurğunun köməyi ilə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul olunur. Hərbi xidmətə getdikdən sonra anasının dünyasını dəyişdiyini eşidir. Hərbi hissədən icazə vermədiklərinə görə qaçır. Gənc şairi məhkəməyə verirlər. Lakin R.Rzanın sayəsində onu azad buraxırlar. Hərbi xidməti başa vurduqdan sonra bir müddət özünə iş tapa bilmir. Nəhayət, 1957-ci ildə onu Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna oxumağa göndərirlər. Bu institutda oxuyarkən dünya ədəbiyyatı inciləri ilə daha yaxından tanış olmuş, dünyagörüşünü artırmışdır. 1961-ci ildə bu institutu bitirib, Bakıya qayıdır. Yenə işsiz qalır. Belə bir zamanda N.Həsənzadə görkəmli alim və yazıçı Mircəlal Paşayevlə tanış olur. M. Paşayev N.Həsənzadəni Azərbaycan Dövlət Universitetində aspiranturada oxumağa istiqamətləndirir.

N.Həsənzadə 1965-ci ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1978-1991-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetində baş redaktor vəzifəsində çalışmışdır. 1991-1993-cü illərdə Dövlət Mətbuat Komitəsi sədrinin müavini olmuşdur.

"Nəriman Həsənzadə haqqında danışmaq ümumən müasir Azərbaycan poeziyası haqqında danışmaq deməkdir". Bu sözlər professor Nizami Cəfərova məxsusdur. Həqiqətən də, Nəriman Həsənzadənin müasir Azərbaycan poeziyasında özünəməxsus yeri vardır. Onun istər şeirləri, istər poemaları, istərsə də dramları eyni dərəcədə yüksək sənətkarlıqla yazılmış kamil əsərlərdir. Səhnə əsərləri tarixi mövzuda olsalar belə, müasir dövrlə, günümüzlə səsləşirlər. N.Həsənzadə öz gözəl, nəcib şeirləri ilə insanın qəlbinə rahatlıqla yol tapa bilir. O, şeirlərində həyatın hər üzünə toxunmuşdur; həm dövrün ictimai-siyasi mövzularını, həm də sevgi mövzusunu səmimiliklə qələmə alan lirik şair kimi tanınır. Şairin şeirləri axıcı, səlis, mənalıdır.

Onun "Azərbaycan harayı" adlı şeiri diqqəti cəlb edir. Azərbaycan harayı çəkən misralar qaçqınlıq, köçkünlük, didərginlik, itkinlik dərdlərinə şərik olur.

Azərbaycan harayı var
İçimdədi.
Nə ağırdı
Bu torpağın heysiyyəti.
Dərdin alım,
Dərdlər eyni biçimdədi,
Fərqi varsa,
Ağrısını çəkəndədi.

Şair "Beynəlxalq Məhkəməyə, Bütün Millətlərə" adlı şeirində Qazax rayonunun Ayrım kəndində anadan olmuş iki aylıq Hafizin ermənilər tərəfindən tonqalda yandırılmasını və anasının ona köməyə getməsi zamanı anasının da üstünə benzin tökülüb yandırılması faciəsini qələmə alır.

İki aylıq bir çağa,
Həsrət qaldı qucağa,-
Atdılar bir ocağa,

Qıydılar bir qundağa
Silahlı beş-on dığa.

Şair "Ay haray" şeiri ilə Qarabağla bağlı içində yanan Vətən sevgisini izhar edir:

Füzulidən Cəbrayıla,
Şəhid oğullar ayıla.
Qışqıram, səsim yayıla,
Bata qulaqlar, ay haray.

N.Həsənzadənin vətənpərvərlik mövzusunda şeirləri çoxdur və gözəldir: "Gəncə üsyanı", "Səs ver Bakıya, Təbriz", "Azərbaycan" və s. kimi. N.Həsənzadə azadlıq carçısı kimi də gözəl şeirlər qələmə almışdır. O, bu şeirlərində azadlıq yolunu, onun qan-qadasını heç nədən çəkinmədən qəlbinin dərinliyindən gələn səslə bəyan edir:

Nədir əlindəki qanlı silah,
Azadlıq qan üstə qurulur, Allah!
Azadlıq, azadlıq, azadlıq,
Azadlıq içində qırıldıq, batdıq.

Şairlərimizin çoxu Azərbaycan ədəbiyyatının bir qolu olan "Cənub həsrəti " mövzusuna toxunub. Bunu da danmaq olmaz ki, "Cənub həsrəti" mövzusunun şahı Süleyman Rüstəm olub. Nəriman Həsənzadə də dönə-dönə, böyük ustalıqla bu mövzunu elə qələmə alıb ki, öz tapıntıları ilə fərqlənib; "Keçdim Arazı" şeiri diqqəti cəlb edir:

Öpdü saçlarımı Təbriz külayi,
Zabit narazıydı, susurdu üzdə.
Sərhəddə yeriyən sərhəd dirəyi!
Tikanlı məftillər çatmırdı üstə.

Bu mövzuya aid "Təbriz", "Ac dolannam burda nahar vaxtımı", "Qardaş" və s. kimi şeirləri də maraqlıdır.

N.Həsənzadənin şeirlərinə xas olan mehribanlıq, qayğıkeşlik, səmimiyyət, zəriflik oxucunu təsirləndirir. Onun yaradıcılığında, zənnimcə, ən əsas mövzulardan biri qadına rəğbət və sevgidir. Şair gözəl, nəcib qadın zərifliyini çox ustalıqla qələmə almışdır. "Dünyada ən böyük itki qadındı" deyən şair bu ağır həyatı çox erkən yaşayıb. Gəncliyində anasını, həyatının qızıl çağında isə həyat yoldaşını itirib. N.Həsənzadə bu səmimi şeirləri ilə insanı kövrəldir. Təsadüfi deyil ki, görkəmli şair Bəxtiyar Vahabzadə N.Həsənzadə haqqında belə demişdir: "Nəriman Həsənzadə çox səmimi, ürək dili ilə danışmağı bacaran şairdir". Azərbaycan poeziyasında qadını vəsf edən şairlər sırasında Nəriman Həsənzadə seçilir.

Mən səni sevdim ki, yoldaş olasan,
Həyatın ən ağır dar yollarında.
Demədim axırda bir daş olasan,
Qədim qəbristanda, yol kənarında.

Şair həyat yoldaşının qadın gözəlliyinə, qadın cazibəsinə, qadın varlığına çox şeir həsr etmişdir. Biri-birindən gözəl, biri-birindən səmimi şeirlər. Şair kişini qadınsız təsəvvürünə belə gətirə bilmir, qadınsız kişi həyatının necə acı olduğunu diqqətə çatdırır:

Bir gün səndən sonra bərk xəstələndim,
Canımda payızın əsən yelləri.
Sənsiz mən anasız uşaq kimiyəm,
Dünya yad qızıydı məndən ötəri.

N.Həsənzadənin yaradıcılığı çox geniş və hərtərəflidir. "Kimin sualı var" poeması diqqətimi cəlb etdi. Şair tələbə ikən şahidi olduğu hadisəni qələmə alıb. Poemada ali məktəbdə ona tarixdən, vətənpərvərlikdən, namusdan, qeyrətdən dərs deyən professorun oğlu ilə bir qrupda oxumasından, professor oğlunun kənddən gəlmiş sadə, tələbə bir qızı aldadıb bədbəxt etməsindən, buna görə oğlanın yox, qızın ali məktəbdən qovulmasından bəhs edilir, acı bir mənzərə təsvir olunur. Poema proffessorun özünə müraciətlə yazılmışdır:

Alim adamsınız, ona da yalnız,
bir alim qızını almalıydınız.

Poemada şair professor oğlunun anası ilə öz anasını müqayisə edir:

Mənim gəlin anam pis gün görərək,
İdarə süpürdü
Ağrıdı beli.
Sənin xanım anan qonaqlıqlarda
Özgəyə göz vurdu ərindən gizli.

Əlbəttə, mən kiçik yazımda N.Həsənzadə yaradıcılığının təhlilini verə bilməzdim; sadəcə, professor Hamlet İsaxanlının "Şeir sənəti" dərsinin iştirakçısı, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə təhsil alan bir tələbə kimi N.Həsənzadə şeirlərindən aldığım təəssüratı qeyd etməyə çalışdım.

Fərid KƏRİMOV,
Humanitar və sosial elmlər fakültəsinin
II kurs tələbəsi

TƏDQİQAT

"KİTABİ-DƏDƏ QORQUD"DA OĞUZ QADIN TİPİ: DƏLİ DOMRULUN XATUNU



BƏHLUL ABDULLA

filologiya elmləri doktoru, əməkdar elm xadimi

KDQ-dəki xanımlar sədaqətli, namuslu, döyüşkən, fədakar olmaqları ilə tanınırlar. Bu xanımlar ər yolunda, oğul uğrunda hər cəfaya qatlaşmağa hazır olan xanımlardır. Sözsüz ki, dava-döyüşə qatılan həmin xanımlar ölüm-itimin də olacağını bilirlər. Amma görə-görə, bilə-bilə, etirazsız-filansız ər uğrunda könüllü olaraq can vermək, ölümə razı olmaq, düşünürük ki, fədakarlığın ən uca zirvəsi – kulminasiyasıdır. Bu zirvəyə qalxan, orada şərəflə heykəlləşən isə, sözsüz ki, daha üstün görünən Dəli Domrulun xatunudur.

Bizim Dəli Domrul obrazı ilə bağlı "Dəli Domrul "Kitabi-Dədə Qorqud"da və qorqudşünaslıqda" (2002) adlı ayrıca kitabımız var. Amma həmin araşdırmada məqsəd tamamilə başqa olduğundan Dəli Domrulun xatunu ilə bağlı söhbətə bir elə də yer ayırmamışıq.

Məsələ belədir. Dəli Domrul guya Tanrının üzünə ağ olduğu üçün ölümə məhkum edilir. Əzrayıla onu öldürmək həvalə olunur. Həqiqətdən xəbərsiz Dəli Domrul bu işdə səbəbkar elə Əzrayılı bilir və onunla döyüşə başlayır. Nəticədə məğlub olan Dəli Domrul elə Əzrayılın özündən öyrənir ki, insanı yaşadan da, öldürən də Tanrının özüdür.

Əzrayıl isə olsa-olsa yalnız əmri yerinə yetirəndir. Dəli Domrul istəmir ki, onu Əzrayıl öldürsün. Əgər labüddürsə, qoy elə bu işi Tanrı özü görsün. Odur ki, deyir:

Yucalardan yucasan,
Kimsə bilməz necəsən.
Görklü Tanrı
Neçə cahillər səni göydə arar, yerdə istər.
Sən xud möminlər könlindəsən.
Daim duran cabbar Tanrı,
Baqi qalan səttar Tanrı.
Mənim canım alur olsan, sən algil!
Əzrayilə almağa qoymagil!

Dəli Domrulun sözləri Tanrının xoşuna gəlir və vəd edir ki, o, öz canı yerinə başqasının canını verə bilsə, bağışlanacaq.

Elə əsl mərəkə də bundan sonra başlayır. Dəli Domrulun ən yaxını kimdir? Sözsüz ki, atası və anası. Amma onların hər ikisi "Dünya şirin, can əziz! Canımı qıya bilməm!" – deyib, oğul xahişindən imtina edirlər. Çarəsizliyə düçar olan Dəli Domrul Əzrayılın razılığı ilə xanımı – halalı ilə halallaşmağa, vəsiyyətini söyləməyə gəlir. O, məsələni halalına açıb ata-anasının ondan can əsirgədiklərini deyir. Dəli Domrul vəsiyyətində yüksək qara dağlarını, soyuq-soyuq sularını, tövlə-tövlə şahbaz atlarını, ban evlərini, qatar-qatar dəvələrini, ağca qoyunlarını xanımına verməklə yanaşı, həm də

Könlün kimi sevərsə, sən ona vargil!
İki oğlancığı öksüz qomagil! – söyləyir.

Burada Dəli Domrulun soylamasından yalnız bu sonuncu dediklərini olduğu şəkildə verməkdə də məqsədimiz var. Deməli, örnəkdən gördüyümüz kimi, Oğuz cəmiyyəti etiketində ərdən sonra dul qalmış qadının başqasına ərə getməsi halları vardır. Dediyimiz məsələdə yalnız bircə bu fakt olsaydı, bunu KDQ-də təsadüfi hal olaraq da düşünə bilərdik. Amma həqiqət belə deyil. Ayrı misallara müraciət edək. Əgər üçüncü boyda Bamsı Beyrək zindandan qaçıb gəlməsəydi, artıq toyu başlanmış nişanlısı Banıçiçək Yalançı oğluna ərə gedəcəkdi. Yaxud, abidənin sonuncu boyunda Bamsı Beyrək Aruzun əli ilə ölümcül yaralanır. O, dünyasını dəyişəcəyini yəqinləşdirəndə

bunu da bilir ki, Aruzun tərəfdarları onun varyoxunu qənimət olaraq talayıb aparacaq, halalı da Aruz oğlu Basata qismət olacaq. Odur ki, Salur Qazana sifariş göndərir:

Ağca yüzli görklimi Aruz oğlu Basat gəlüb almadan...
...Ağca yüzli görklimi oğluna (Uruza – B.A.) *alı versin.*

Abidənin dördüncü boyunda da bu yönə tuş oluruq. Düzdür, burada açıq-aydın uyğunsuzluq vardır. Amma nə etmək olar ki, olan belədir. Yadımıza salaq ki, kafirlər Uruzu xəbərətərsiz tutub dustaq aparırlar. Oğlunun öldü-qaldısını bilməyən Burla xatunun, sən demə, belə arzusu varmış:



Qalqubanı yerimdən duram, derdim.
Yelisi qara Qazılıq atuma binəyim, derdim.
Qalın Oğuz içinə girəm, derdim.
Ala gözlü gəlin alam, derdim.
Qara yerdə ağ otaqlı... dikəm, derdim.
Yürüyübəni oğulı ulu gərdəkə keçürəm, derdim.

Bu soylamadan Uruzun subay, evlənməmiş olduğunu öyrənirik. Amma Burla xatundan ayrılıb Uruzu axtarmağa tələsən Salur Qazan gəlib onu – oğlunu kafirlərin əsirliyində tapır. Atası ilə söhbətində, görün indi Uruz nə deyir:

Mənim anam mənim üçün qayırmasın!
Bir ay baqsun, –
Bir ayda varmazsam, iki ay baqsun!
İki ayda varmazsam, üç ay baqsun!
Üç ayda varmasanız, öldügimi ol vaqt bilsün!
Ayğır atım boğazlayıb aşum versün!
Yad qızı halalıma dəstur versün!

Fikir verdinizmi, anası oğlu üçün qız axtarmaq xəyalında olduğu halda, on altı yaşlı Uruz həmin-həmin evli olduğunu bildirir. Üstəlik də əsirlikdə öləcəyi səbəbindən halalının başqa ərə verilməsini anasına sifariş eləyir.

Onuncu boyda qardaşı Əgrəkin tutulub Əlincə qalasında dustaq saxlanıldığını bir təsadüf nəticəsində öyrənən Səgrək mütləq onun arxasınca gedəcəyini qərarlaşdırır. Amma əvvəlcə deyilənin doğruluğunu yəqinləşdirmək üçün anasının yanına gəlir və fəndlə onun ağzını arayır. Həqiqəti dürüstləşdirən Səgrək indiyəcən bunu ondan gizli saxlayan anasına qəzəblənir. Onu zalımlıqda günahlandırıb "ana haqqı Tanrı haqqı olmasaydı" söyləyib, hətta al qanını yerə tökəcəyini bildirir.

Biz burada Səgrəki haqsız saymadığımız kimi, ananı da haqlı sayırıq. Anaya qarşı Səgrəki hiddətləndirən var olan qardaşının varlığını bilməməsidir və günahkar anasını hesab edir. Ana da ona görə günahsızdır ki, bir oğul həsrəti ilə qubar bağlamış ürəyinə, ikinci oğul dağının da çəkiləcəyindən qorxur. Bu üzdən ana da, ona qoşulan ata da Səgrəki buraxmaq istəmirlər. Çarə aramaq üçün Qazan xana müraciət edib məsləhət istəyirlər. O da oğlanı evləndirməyi məsləhət bilir. Tezcə toy eləyib gəlin gətirirlər. Gərdəkdə Səgrək özü ilə qız arasına qılıncını qoyub deyir: "Mərə qavat qızı, mən qılıcıma doğranayım, oxuma sancılayım! Oğlum doğmasın, doğarsa, on yaşına varmasın, ağamın yüzün görməyincə, ölmüş isə, qanın almayınca bu dərdəgirərsəm!"

Eyni zamanda o, burada, qayıtmayacağı halda, Dəli Domrulun öz xanımına dediyi kimi, "gözün kimi tutarsa, könlün kimi sevərsə, ona varğil!" deyir. Düzdür, Dəli Domrulun xatunu – xanımı da, Səgrək üçün yenicə gəlin gətirilmiş qız da bir daha ərə getməyəcəklərini söyləyirlər. Bununla belə, fakt faktlığında qalır.

Qayıdırıq əsas mətləbə. Dəli Domrulun xanımı ərinin sözlərini eşidincə mərd-mərdanə, çəkinmədən onun yolunda ölməyə hazır olduğunu bəyan edir. Hələ təəssüflənir də ki:

Sənin ol müxənnət anan - baban
Bir canda nə var ki, sana qıymamışlar?
Ərş tanığ olsun, kürsi tanığ olsun,
Yer tanığ olsun, gög tanığ olsun,
Qadir Tanrı tanığ olsun,
Mənim canım sənin canına qurban olsun.

Xatunun bu fədakarlığı Dəli Domrulu məmnun etsə də, Əzrayılın xatunun canını almasına

razı olmur. Tanrıya müraciət edir ki, əgər bu mütləqdirsə, onda onların hər ikisinin canı birgə alınsın. Kərəmi böyük Tanrı Dəli Domrulun ona müraciətində söylədiklərindən xoşlanır. Onlara – ərə və ərin xatununa yüz qırx il ömür bəxş eləyir, Əzrayıla isə Dəli Domrulun ata-anasının canını almağı tapşırır.

Doğrudur, "can əvəzinə can vermə" motivi yalnız KDQ-də olanla məhdudlaşmır. Bunun oxşarını antik yunan miflərində də görürük.

Belə ki, yunanlara məxsus miflərdə bildirilir ki, Alkestanı istəyənlər üçün qızın atası Poles belə bir şərt qoyub: kim vəhşi heyvanları cəng arabasına qoşa bilsə, qızını ona ərə verəcək. Tanrının işə rəvac verməsi ilə Admet vəhşi qabanı və aslanı arabaya qoşub Alkestanı alır. Amma toy günü Admet Tanrıya qurban kəsməyi unudur. Bundan qəzəblənən Tanrı Admetin gərdək otağını ilanlarla doldurur. Admet bu bəladan – ölümdən yalnız canı əvəzinə can verməklə qurtara bilər. Bu vaxt Zevsin dərgahından qovduğu və taleyinə bir ölüyə xidmət etmək hökmü yazdığı ("ölüyə xidmət etmək" motivi bir Azərbaycan nağılında da var. "Ölü Məhəmməd" adlı bu nağılda dərvişin verdiyi alma nəticəsində dünyaya gələn bu qızın taleyinə elə həmin dərvişin qarğışıyla ölüyə qismət yazılır. Qız bir qalaçada ölüyə qırx gün xidmət edir. Amma iş elə gətirir ki, bu qız qalaçanın yanından keçən köçdən qızıl verib bir qız alır. Əhvalatı ona danışır. Qız yuyunmağa getdiyi zaman "ölü" dirilir. Köçdən alınan qız yalandan özünün ona xidmət etdiyini söyləyir. Onlar evlənirlər. Zaman keçir, həqiqət aydınlaşır. Oğlan köçdən alınmış qızı qovur və həqiqətən ona qulluq etmiş qızla evlənir) Apallon gəlib buraya çıxır. Məsələdən xəbərdar olan Apallon xidmətçilərə şərab verib sərxoş edir və onları inandırmağa çalışır ki, ağalarının yolunda kimsənin can verməsi ölçüyəsığmaz şərəf müqabilindədir. Amma son anda xidmətçilər də, Admetin öz ata-anası da canlarını verməkdən imtina edirlər. İşi belə görən Alkesta ömrünün qalan günlərini ərinə güzəştə getməli olur. Elə bu zaman Herakl gəlib çıxır. Bir mifə görə, onu Zevs göndərir. Başqa bir mifə görə isə o, təsadüfən dostu Admetin yanına gəlir. Herakl ölüm mələyi ilə vuruşub, Alkestanın canını geri alır. Digər bir yunan mifində isə bildirilir ki, Admet ilə Alkesta çoxdan evlənibiər. Onların hətta uşaqları da var və Alkesta ərinin yolunda canını verməzdən öncə onlarla sağollaşır da.

